RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 11 (8890) ÇƏRŞƏNBƏ AXŞAMI, 18 yanvar 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Artan güc
# Qüdrətli ordu
# Dəyişdirilmiş reallıq
# Hərtərəfli hazırlıq
# Dəqiq hədəflər

**Görünən odur ki, İlham Əliyev daim öndədir!**
**Hadisələrin önündədir!**
**Baş verəcək prosesləri, bir qayda olaraq, həmişə qabaqlayır!**
**İrəlicədən hər məqamı sezərək nəzərə alır, vaxtında tədbirin görür!**

*Prezident İlham Əliyevin bir qrup jurnalistin suallarını cavablandırarkən söylədiyi fikirlər, gətirdiyi konkret faktlar bütün bunları bir daha təsdiq etdi.*

Son bir neçə ildə dünyada, habelə Azərbaycanda o qədər mürəkkəb, gözlənilməz, proqnozedilməz hadisələr baş verib ki...

Bütün bunları irəlicədən görüb qabaqlayıcı addımlar atmaq hər rəhbərə müyəssər olmayan müdriklik və uzaqgörənlikdir.

**Prezident İlham Əliyev bu mürəkkəbliklərdən, gözlənilməzliklərdən, taleyüklü sınaqlardan müstəqil Azərbaycanı uğurla, üstəlik, möhtəşəm qələbə ilə çıxarmağı bacardı.**

❖ ❖ ❖

*XXI əsrdə həm də dünyanın yeni siması müəyyənləşib.*
*Böyük və qüdrətli dövlətlər daha özlərinin əvvəllər müəyyənləşdirdikləri prinsiplərə əməl etmirlər!*

Daha beynəlxalq hüquq işləmir!
Daha imzalanmış beynəlxalq konvensiyalara əməl edən yoxdur!
Daha beynəlxalq qurum və təşkilatlar haqlı dövlətin haqqını, ədaləti müdafiə etmirlər!
**Artıq gücün hüququ meydan sulayır!**

*Bunu bilən, nəzərə alan və güclü olmağı bacaran kiçik dövlətlər də özlərini qorumağı, inkişaf etməyi, öz problemlərini müstəqil surətdə çözməyi, ən nəhayət, söz sahibi olmağı bacarmalıdırlar!*

Ərazi bütövlüyünü 44 gün ərzində bərpa etmiş müstəqil Azərbaycan kimi!

Amma buna qədər uzun bir yol getmək, keçilməz maneələri, süni əngəlləri dəf etmək, güclü olduğunu isbata yetirmək də gərək olmuşdu!

**Azərbaycan bu gün də güclüdür!**

Həm də dünyanın gücdən düşdüyü, COVID-19-un əsirinə çevrildiyi, qapandığı, iqtisadiyyatı tənəzzülə uğradığı, planetin 500 milyon insanının pandemiya səbəbindən yoxsulluq səviyyəsinə düşdüyü bir vaxtda da!

Dediklərimizi rəqəmlər də sübut edir.

**Baxın, Ermənistan ordusunu məhv edərək 20 faizlik ərazisinin böyük hissəsini işğalçılardan azad edən, viran qoyulmuş Qarabağda minalardan təmizləmə, bərpa və quruculuq işlərinə başlayan, koronavirusla əlbəyaxa mübarizə aparan Azərbaycan dünyanın çökdüyü bir vaxtda bütün parametrlər üzrə irəliləmişdir:**

- iqtisadi artım 5 faizdən yüksəkdir;
- qeyri-neft sektoru 7,2 faiz artıb;
- qeyri-neft sənayesində artım 20 faizə yaxındır;
- ixrac idxalı böyük dərəcədə üstələyib və müsbət saldo 10 milyard dollardır;
- qeyri-neft ixracı 40 faizdən artıqdır;
- valyuta ehtiyatlarımız daha 2,5 milyard dollar çoxalıb;
- ən əsası, manat sabitdir və həm də ölkə əhalisi bundan faydalanır, üstəlik, manata inam böyük dərəcədədir!

*Ardı 3-cü səh.*



## Prezident İlham Əliyevlə Monteneqro parlamentinin sədri Aleksa Beçiç arasında videoformatda görüş olub

Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Monteneqro parlamentinin sədri Aleksa Beçiç arasında videoformatda görüş olub.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycanla Monteneqro arasında dostluq münasibətlərinin olduğunu qeyd edərək, ölkələrimiz arasında, o cümlədən dövlət başçıları səviyyəsində mövcud olan yüksəksəviyyəli dialoqdan bəhs edərək, parlamentlərarası əlaqələrin inkişafından məmnunluğunu bildirdi. Dövlətimizin başçısı müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari, enerji, nəqliyyat sahələrində əməkdaşlığın inkişafı üçün yaxşı zəminin olduğunu qeyd etdi və bu baxımdan hökumətlərarası birgə komissiyanın fəaliyyətinin önəmini vurğuladı.

Monteneqro parlamentinin sədri Aleksa Beçiç də öz növbəsində ölkələrimiz arasında fəal siyasi dialoqun olduğunu məmnunluqla qeyd etdi.

Aleksa Beçiç Monteneqronun Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini vurğuladı. Monteneqronun Azərbaycanın dostu olduğunu deyərək, ölkəmizin əldə etdiyi nailiyyətlər münasibətilə xalqımızı təbrik etdi. Monteneqro parlamentinin sədri ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd edərək, bu sahədə müvafiq sənədin imzalanmasının vacibliyini vurğuladı.

Görüşdə həmçinin beynəlxalq təşkilatlar, o cümlədən parlamentlərarası təsisatlar çərçivəsində ölkələrimizin qarşılıqlı dəstəyi və maraq doğuran digər məsələlər müzakirə olundu.

## Azərbaycan-Ukrayna əməkdaşlığı iqtisadiyyatın müxtəlif sahələrini əhatə edir

Təsadüfi deyil ki, Prezident İlham Əliyevin bu il yanvarın 14-də Ukraynaya işgüzar səfəri zamanı keçirilən görüşlərdə və digər tədbirlərdə də həmin məsələlər diqqət mərkəzində olmuşdur. Dövlətimizin başçısı və Ukrayna Prezidenti Volodimir Zelenski Birgə Bəyannamə imzalamışlar. Səfər çərçivəsində imzalanan digər sənədlər də hər iki ölkənin iqtisadiyyatının müxtəlif sahələrini əhatə edir. Bunlar "Qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında" saziş, "İkitərəfli ticarətdə təcili əməkdaşlıq haqqında", "Aqrar sahədə əməkdaşlıq haqqında", "Energetika sahəsində əməkdaşlıq haqqında", "Torpaq münasibətləri, dövlət torpaqlarının idarə edilməsi və dövlət torpaq



kadastrı sahəsində əməkdaşlıq haqqında" anlaşma memorandumlarıdır.

*Bax: səh. 6*

## Yeni Azərbaycan Partiyası: yeni proqramla möhtəşəm zirvələrə doğru

**YAP Azərbaycanın siyasi sisteminə xalqımızın mənafeyini təcəssüm etdirən güclü siyasi təşkilat kimi daxil olub. Partiya 30 ilə yaxındır ki, qarşısına qoyduğu məqsədlərə (dövlət müstəqilliyinin möhkəmləndirilməsi, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin, sosialyönümlü iqtisadiyyatın inkişafı, milli-mənəvi dəyərlərin qorunması və s.) nail olunmasında böyük nailiyyətlər əldə edib. Hazırda 800 min nəfərə yaxın üzvü olan partiya Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin aparılmasında, onun təbliğində yaxından iştirak edir.**

**Cəmiyyət daim yeniləşir, ictimai münasibətlərin inkişaf səviyyəsi yeni çağırışlar və reallıqlar yaradır. Bütün bunlar da öz növbəsində YAP-ın hakim partiya kimi qarşısında yeni tələblər və vəzifələr qoyur. Burada bir məqamı xüsusilə qeyd etməliyik ki, YAP həm cəmiyyətin irəliyə doğru, keyfiyyətcə yeni inkişaf mərhələlərinə daxil olmasını və onun mütərəqqi inkişafını təmin edən aparıcı siyasi qüvvə kimi çıxış edir, həm də yaratdığı yeni çağırışları və reallıqları özü tənzimləyərək, gələcəyə istiqamətlənmiş məqsəd və vəzifələr müəyyənləşdirir.**

**Məhz bundan irəli gələrək, YAP-ın 2021-ci il martın 5-də keçirilmiş VII qurultayında partiyanın qarşısına yeni hədəflər və vəzifələr qoyulmuşdur. YAP-ın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultaydakı genişməzmunlu çıxışında partiyanın yarandığı vaxtdan indiyə kimi müstəqil dövlətçiliyin və demokratik siyasi sistemin möhkəmlənməsi, ölkəmizin davamlı inkişafı, milli birliyin və vətəndaş həmrəyliyinin təmin olunması istiqamətində göstərdiyi fəaliyyətlə bağlı dəyərli fikirlər irəli sürmüşdür. Prezident İlham Əliyevin dediyi kimi: "Partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var".**

*Bax: səh. 4*

## Qazaxda Heydər Əliyev Fondunun təşəbbüsü ilə yeni məktəb binası inşa olunub

"Yeniləşən Azərbaycan yeni məktəb" proqramı çərçivəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə daha bir məktəb binası Qazax rayonunda inşa olunub.

AZƏRTAC xəbər verir ki, Qazax rayonu Şahnabat Nəsibova adına Sarıvəlli kənd tam orta məktəbinin binası ikimərtəbəli və 220 şagird yerlikdir.

Məktəbin əvvəlki binası 1966-cı ildə inşa edildiyindən fiziki köhnəlmiş və istifadəyə yararsız vəziyyətə düşmüşdü.




*Ardı 2-ci səh.*



## "Omikron"a ay ərzində 3 dəfə də yoluxmaq olar

Ötən ilin sonlarından "SARS-CoV-2" virusunun "Omikron" ştamının yayılma arealının genişlənməsi və virusa yoluxanların sayının çoxalması nəticəsində pandemiya yenidən şiddətlənməyə başlayıb. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) qarşıdan gələn 2-3 həftə ərzində Avropada əhalinin tən yarısının "Omikron"a yoluxa biləcəyi təhlükəsinin gözlənildiyini açıqladıqdan sonra ayrı-ayrı dövlətlər də ölkələrində vəziyyətin buna doğru getdiyini etiraf edirlər.

*Ardı 5-ci səh.*

# Baş nazir Əli Əsədov Monteneqro parlamentinin sədri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov yanvarın 17-də Monteneqro parlamentinin sədri Aleksa Beçiç ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Monteneqro dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi bildirilib, A.Beçiçin səfərinin ikitərəfli əməkdaşlığın genişləndirilməsinə təkan verəcəyinə əminlik ifadə olunub.

Həmçinin Azərbaycan ilə Monteneqro arasında iqtisadi-ticari, humanitar, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib.

# Monteneqro parlamentinin sədri Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib

Ölkəmizdə səfərdə olan Monteneqro parlamentinin sədri Aleksa Beçiçin başçılıq etdiyi nümayəndə heyəti yanvarın 17-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.





AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvləri həmçinin Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Sonda Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Qeyd edək ki, ziyarət zamanı nümayəndə heyətini Milli Məclis Sədrinin müavini Adil Əliyev və Monteneqro ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri İqbal Məmmədov müşayiət ediblər.

# Qazaxda Heydər Əliyev Fondunun təşəbbüsü ilə yeni məktəb binası inşa olunub

Əvvəli 1-ci səh.



Məktəbin müəllimi Leyli Sarıyeva Sarıvəlli kəndində yeni məktəb binasının inşa olunmasının kənd sakinlərinin çoxdankı arzusu olduğunu deyib: "Yeniləşən Azərbaycan yeni məktəb" proqramı çərçivəsində inşa olunan bu məktəb binası bizə böyük hədiyyədir. Buna görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya sonsuz təşəkkür edirik. Bildiririk ki, şagirdlərin keyfiyyətli təhsil alması və Vətənə layiqli övlad kimi böyüməsi üçün əlimizdən gələni edəcəyik".

Valideynlər isə övladlarının yeni, müasir tələblərə cavab verən məktəbdə təhsil alacağı üçün sevinclidirlər. "Oğlum Kərim və qızım Nazənin bu il birinci sinfə qədəm qoyublar. İnşallah, onlar üçün belə gözəl məktəbdə gözəl də tədris ili olar. Bütün əməyi keçən hər kəsə bir şəhid ailəsi, şəhid həyat yoldaşı kimi təşəkkür edir, minnətdarlığımı bildirirəm", - deyə şəhid Emil Kərimovun həyat yoldaşı Afət Əliyeva bildirib.

Yeni məktəb binasında 14 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb, qızlar və oğlanlar üçün əmək təlimi otaqları, qarderob, kitabxana, yeməkxana, akt və idman zalları, həmçinin açıq idman meydançası var.

"Köhnə məktəbimizdə oxumağımız üçün yaxşı şərait yox idi. Siniflərimiz istiliklə təmin olunmamışdı. Amma yeni məktəbimizdə istilik sistemi ilə yanaşı, fənn kabinələri, idman zalı, kitabxana və yeni avadanlıqlar var", - deyə məktəbin XI sinif şagirdi Lamiyə Qocayeva deyib.

Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinələri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib.






# *Aleksa BEÇİÇ:* "Monteneqro Azərbaycanla əməkdaşlığı genişləndirmək niyyətindədir"



Yanvarın 17-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Monteneqro parlamentinin sədri Aleksa Beçiçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, S.Qafarova qonaqları salamlayaraq, Azərbaycanla Monteneqro arasında əlaqələrin uğurla inkişaf etdiyini söyləyib. Bildirilib ki, bu gün siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığımız inkişaf etməkdədir. Ölkə prezidentlərinin qarşılıqlı səfərləri zamanı aparılan danışıqlar əlaqələrimizə təkan verib. Dövlətlərimiz arasında imzalanmış sənədlər münasibətlərimizin hüquqi bazasını təşkil edir.

Milli Məclisin Sədri qeyd edib ki, parlamentlərimiz münasibətlərimizin daha da inkişafına özünəməxsus töhfə verməkdədir. S.Qafarova hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsini təcrübə və qanunvericilik sahəsində informasiya mübadiləsi baxımından önəmli hesab edib. Diqqətə çatdırılıb ki, deputatların mütəmadi səfərləri qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi baxımından əhəmiyyətlidir. O cümlədən parlamentarilərin beynəlxalq təşkilatlarda qarşılıqlı əməkdaşlığı məmnunluq doğurur.

Sahibə Qafarova 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın öz gücü hesabına əzəli torpaqlarını erməni işğalından azad etdiyini diqqətə çatdırıb. Qeyd edilib ki, BMT Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalan qətnamələri Azərbaycan tərəfindən həyata keçirilib, ölkəmiz öz ərazi bütövlüyünü bərpa edib. Milli Məclisin Sədri həmçinin torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalının nəticələri barədə məlumat verib. Bildirilib ki, bu gün işğaldan azad edilmiş ərazilərimizdə quruculuq və bərpa işləri aparılır. Biz Qafqazın bu bölgəsində, Azərbaycan Prezidentinin dediyi kimi, müharibədən yox, sülhdən danışmaq istəyirik. Ümid edirik ki, sülh sazişi tezliklə imzalanacaq.

Səmimi görüşə və ölkəmizə rəsmi səfərə dəvətə görə minnətdarlığını bildirən Monteneqro parlamentinin sədri Aleksa Beçiç Azərbaycana səfərindən məmnun qaldığını söyləyib. Qeyd edilib ki, Monteneqro ölkəmizlə əməkdaşlığı genişləndirmək niyyətindədir. Qonaq səfər çərçivəsində keçiriləcək görüşlər zamanı aparılacaq danışıqların münasibətlərimizin dərinləşməsinə müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib. O, bütün sahələr üzrə əməkdaşlığın daha da gücləndirilməsi üçün yaxşı imkanlar olduğunu söyləyib.

Monteneqro parlamentinin rəhbəri ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini vurğulayıb. Monteneqronun Azərbaycanın dostu olduğunu deyərək, ölkəmizin qazandığı nailiyyətlər münasibətilə xalqımızı təbrik edib.

Aleksa Beçiç COVID-19 pandemiyası ilə mübarizədə ölkəsinə göstərilən yardıma görə Azərbaycan tərəfinə minnətdarlığını ifadə edib. Vurğulayıb ki, qanunverici orqanlar arasında əlaqələrin daha da dərinləşməsi digər sahələrin də inkişafına müsbət təsir göstərir.

Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, deputatların beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlığı və dəstəyin davam etdirilməsinin əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Monteneqro ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı İqbal Məmmədov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Monteneqronun Azərbaycandakı səfiri Perişa Kastratoviç və digər rəsmi şəxslər iştirak ediblər.

# Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin Vatikana səfərinin yekunlarına dair mətbuat konfransı keçirilib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi Azərbaycandakı dini icmaların təmsilçilərindən ibarət nümayəndə heyətinin Müqəddəs Tax-Taca səfərinin yekunlarına dair yanvarın 17-də mətbuat konfransı keçirilib.



AZƏRTAC xəbər verir ki, Şeyxülislam Allahşükür Paşazadənin, Azərbaycanın Fransada və Müqəddəs Taxt-Tacdakı səfiri Rəhman Mustafayevin, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksiyin (Nikonorov), Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekti Yepiskop Vladimir Feketenin, Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Salman Musayevin iştirakı ilə keçirilən mətbuat konfransında müxtəlif ölkələrin Vatikanda akkreditə olunmuş jurnalistləri, İtaliya və Azərbaycan KİV-inin təmsilçiləri iştirak ediblər.

Azərbaycan nümayəndə heyətinin Vatikanda keçirdiyi görüşlər barədə məlumat verən səfir Rəhman Mustafayev deyib ki, görüşlərdə Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı əməkdaşlıq məsələləri müzakirə edilib. Bildirib ki, nümayəndə heyətinin Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransisk, Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin, Vatikanın Xarici Dövlətlərlə Əlaqələr üzrə katibi Paul Riçard Qallaher, Vatikanın Dinlərarası Dialoq üzrə Pontifik Şurasının prezidenti, kardinal Migel Anhel Ayuso Giksot, Vatikanın Mədəniyyət üzrə Pontifik Şurasının və Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti kardinal Canfranko Ravazi və bu ölkənin baş keşişi (vikari), Müqəddəs Pyotr Kilsəsinin rəhbəri kardinal Mauro Qambetti ilə görüşlərində Azərbaycan ilə Vatikan arasında yüksəksəviyyəli əməkdaşlığın və dinlərarası əlaqələrin səviyyəsindən məmnunluq ifadə olunub.

Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan ilə Vatikan arasında xüsusi münasibətlərin olduğunu bildirib. Deyib ki, bu əlaqələrin bugünkü yüksək səviyyəsinin təməli məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Müqəddəs Tax-Tac ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunacaq. Bu müddət ərzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Müqəddəs Tax-Taca rəsmi səfərləri olub, həmçinin Papa II İohan Pavel və Papa Fransisk Azərbaycana səfər ediblər. Papa II İohan Pavel Vatikan ilə Azərbaycanın diplomatik əlaqələrinin qurulmasının 10 illiyində Ümummilli Lider Heydər Əliyevin dəvəti ilə, Papa Fransisk isə Prezident İlham Əliyevin dəvəti ilə 2016-cı ildə ölkəmizə gəliblər.

Daha sonra Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksiy (Nikonorov) və Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekti Yepiskop Vladimir Fekete səfər təəssüratlarını bölüşüblər.

Mətbuat konfransında Azərbaycanın dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilib.

# Üç yeniyetmənin İrandan Azərbaycana qanunsuz keçməsinin qarşısı alınıb

Yanvarın 17-də saat 15:25 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının Göytəpə sərhəd dəstəsinin Biləsuvar rayonunun Amankənd kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində üç nəfər tərəfindən dövlət sərhədinin pozulması müşahidə edilib.

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, sərhəd pozucuları sərhəd naryadı tərəfindən saxlanılıb.

Azyaşlı olmaları müəyyənləşdirilən sərhəd pozucuları dövlət sərhədini səhvən pozduqlarını bildiriblər. Onlar özlərini İran İslam Respublikasının vətəndaşları Atəşi Əmirrza Atəş (14 yaş), Puya Bədəli Mehrac (12 yaş) və Danayi Səhənd İbrahim (11 yaş) kimi təqdim ediblər. Saxlanılmış şəxslər sərhəd zastavasına gətirilib, isti yemək və digər lazımi şəraitlə təmin ediliblər.

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında mehriban qonşuluq və dostluq münasibətləri nəzərə alınaraq sərhəd nümayəndəliyi xətti ilə qarşı tərəf məlumatlandırılıb.

Azyaşlıların qısa müddətdə İran tərəfinə təhvil verilmələri nəzərdə tutulub.

DSX dövlət sərhədinin etibarlı mühafizəsi sahəsində tədbirləri fasiləsiz davam etdirir.



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

*Əvvəli 1-ci səh.*

*Ağır dövrdən inamla çıxan Azərbaycan yeni ilə tarixinin ən böyük büdcəsi ilə (büdcə xərcləri 30 milyard manata çatacaq) qədəm qoyur.*

**Yenə də cənab İlham Əliyev tərəfindən müəyyənləşdirilən və dəyişməz qalan prinsiplər qüvvədədir:**

- köklü iqtisadi islahatlar davamlı olacaqdır;
- sosial sahə daim diqqət mərkəzində saxlanılacaqdır;
- daha bir geniş - 1,5 milyard manatlıq sosial paket həyata keçirilir;
- imkan yarandıqca, əlavə vəsait toplandıqca, onlar da xalqın güzəranının yüksəldilməsinə yönəldiləcəkdir.

**Qarabağın cənnətə çevriləcəyi barədə dövlət başçısı İlham Əliyevin vədinə uyğun olaraq işğaldan azad olunmuş ərazilərə böyük vəsait qoyulur:**

- minalardan təmizləmə işlərinə;
- yeni yolların çəkilməsinə;
- alternativ elektrik enerjisi istehsalı qurğularının inşasına;
- zəruri infrastruktur yaradılmasına;
- "ağıllı" kənd və qəsəbələrin, şəhərlərin salınmasına;
- yeni iş yerlərinin yaradılmasına;
- bütövlükdə "Böyük qayıdışa" möhtəşəm hazırlıq işlərinə!

*Uğurumuzu təmin edən məqamlardan biri də budur ki, bütövləşməyimiz, torpaqları geri qaytarmağımız gücümüzə yeni güc də qatır!*

Başqa sözlə, iqtisadi imkanlarımızı genişləndirir:

- faydalı qazıntı yataqlarından özümüz bəhrələnəcəyik;
- dövriyyəyə məhsuldar torpaqlar, yeni əkin sahələri qatılacaqdır;
- suvarma suyuna tələbat daha dolğun ödəniləcəkdir;
- elektrik enerjisi istehsalı artacaq, onun ixrac imkanları genişlənəcəkdir;
- yaylaq və otlaq sahələrinin əsaslı şəkildə genişlənməsi heyvandarlığın inkişafına güclü təkan verəcəkdir;
- bağçılıq, meyvəçilik, əkinçilikdə yeni texnologiyalar, sortlar hesabına məhsuldarlıq xeyli yüksələcəkdir;
- turizmin inkişafı büdcəyə əlavə vəsait və valyuta gətirəcəkdir və s.

**İlham Əliyevin rəhbərliyi ilə icrasına başlanan, görülməsi nəzərdə tutulan bütün işlər müstəqil Azərbaycanı daha güclü, daha qüdrətli və daha sözükeçər edəcəkdir.**

❖ ❖ ❖

**Dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən cənab İlham Əliyev hərbi quruculuğa xüsusi diqqət ayırıb, gündəlik işinin birinci dərəcəli məsələsi sayıb!**

Qarabağ probleminin həllini xalqının ən böyük arzusu, müqəddəs istəyi hesab edib!

Torpaqların işğaldan azad edilməsi uğrunda dayanmadan, gecə-gündüz bilmədən, yorulmadan, həm də bir çox mühüm istiqamətlərdə səmərəli fəaliyyət göstərib:

- hər il dövlət büdcəsində ən böyük xərcləri hərbi quruculuq üçün ayırıb;
- yeni vətənpərvər gənclər nəsli yetişdirib;
- dünyanın tanınmış hərbi məktəblərində zabit kadrları oxutdurub;
- xüsusi təyinatlı qüvvələr hazırlayıb;
- sistemli keçirilən təlimlər sayəsində əsgər və zabitlərin peşəkarlığını yüksəldib;
- ordunu ən müasir silahlarla, taktika və strategiya ilə təmin edib;
- hərbçilər üçün nümunəvi məişət şəraiti yaradıb;
- daim ordu ilə təmasda olub, onları ruhlandırıb, təltif edib, qələbəyə kökləyib!

*Bütün bunların bəhrəsini 44 günlük Zəfər müharibəsində gördük!*

*Həm də təkcə biz yox, bütün dünya gördü və bildi!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev Ermənistan ordusunu məhv etdi!**

**Düşməni qarşısında diz çökdürdü!**

**Kapitulyasiya aktına imza atdırdı!**

**Erməni vandallarını torpaqlarımızdan iti qovan kimi qovdu!**




Əgər indi Ermənistan revanşizm barədə düşünürsə, kiməsə, yaxud nəyəsə güvənərək Azərbaycandan qisas alacağını zənn edirsə, deməli, həmin dövlətin rəhbərləri də, hərbçiləri də, Qarabağı qaytara biləcəklərini düşünənlərin hamısı axmağın axmağıdır!

❖ ❖ ❖

**Azərbaycan öz torpaqlarına, Qarabağa güclü iqtisadiyyatı, qüdrətli ordusu və mükəmməl siyasəti ilə qayıdıb!**

Bunu bütün dünya görür və bilir!

Hətta düşmənlərimiz də!

Amma dəvədən yıxılanın hələ də "höt-höt" deməsi istehzalı təbəssüm və acı gülüş doğurur...

Azərbaycan Qarabağda dövlət sərhədlərinə çıxıb!

Bütün sərhədboyu - Arazdan Murovadək əsas məntəqələrdə yerləşib!

Nəinki yerləşib, hətta orada xidmət aparmaq üçün müasir infrastruktur da qurub!

Ermənistanla həmsərhəd olan Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonlarının ərazilərində 700 kilometrə yaxın xidməti yol, hərbi yol çəkilib!

Bütün azad edilmiş torpaqlarda bir ildə 7 yarımstansiya inşa olunub, bu yarımstansiyalar ümumi dairəvi şəbəkəyə qoşularaq ərazi tam elektrikləşdirilib.

İsti, rahat və abad hərbi şəhərciklərimizdən ermənilərin çadırdan ibarət acınacaqlı postlarına baxanda onların nə gündə xidmət apardıqlarına şahid olursan.

Əslində, Ermənistan Birinci Qarabağ müharibəsində dinc əhaliyə qarşı vuruşmuşdu, sovet ordusuna arxalanaraq torpaqlarımızı işğal etmişdi!

Xocalı soyqırımını da 366-cı sovet alayının vasitəsilə törətmişdi.

Azərbaycanda ölkəyə qorxaqların və naşıların, şəxsi mənafeyini milli maraqlardan üstün tutanların başçılıq etməsi, vaxtında ordu yaradılmaması və müdafiənin təşkil olunmaması da öz mənfi rolunu oynamışdı.

Qəribədir ki, işğaldan keçən 27 il ərzində faşist xislətli ermənilər, onların rəhbərləri və hərbçiləri özləri özlərini inandırmışdılar ki, onlar "qəhrəman", "məğlubedilməz" xalqdır, Azərbaycan ərazilərini "öz orduları sayəsində" ələ keçiriblər və "öz hesablarına" özgə torpaqlarını işğalda saxlayırlar!

Ermənistanın "milli qəhrəmanı" adını almış erməni general və zabitlərinin sayı-hesabı yox idi.

Hamısının döşü bu gün zibil qutusuna atılan dəmir-dümürlə bəzənmişdi.

O qədər qudurmuşdular ki, artıq bizə hədə-qorxu gəlir, "yeni müharibə, yeni ərazilər" deyərək təhdid edirdilər!

**Amma 44 günlük Zəfər müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyev Ermənistan ordusunun necə ordu, müdafiə naziri, general, zabit və əsgərlərinin necə "qəhrəman" olduğunu əyani şəkildə özlərinə və bütün dünyaya nümayiş etdirdi.**

*Alçaq erməni hələ bu gün də öz hərbçilərinin leşlərini Azərbaycan ərazisindən yığıb qurtarmayıb!*

*Utanmaz-utanmaz qisasçılıqdan dəm vururlar.*

*Tez-tez atəşkəsi pozur, itkiyə səbəb olurlar.*

Azərbaycan tərəfi isə hər dəfə atəş açılan nöqtəni darmadağın edərək düşmənə ikiqat, üçqat, beşqat artıq tələfat yaşadanda yalvar-yaxara başlayır, rus sülhməramlılarını minnətçi salaraq atışmanı dayandırmağı xahiş edirlər...

**Cənab İlham Əliyevin son xəbərdarlığı da qəti və sərtdir:** *"Onlar başa düşməlidirlər ki, azərbaycanlı hərbi qulluqçunun ölümü heç vaxt onlara bağışlanmayacaq".*

Azərbaycan darmadağın edərək zəlil günə saldığı düşmənin hansı hiyləyə, alçaqlığa, şərəfsizliyə qadir olduğunu yaxşı bilir və ordunu hər an ayaqda saxlayaraq daha da gücləndirir.

Dalbadal hərbi təlimlər keçirilir, yeni Komando qüvvələri hazırlanır, daha yeni və müasir silahlar alınır və s.

**Cənab İlham Əliyevin daha bir xəbərdarlığını hamı diqqətdə saxlamalıdır:** *"Biz Ermənistanda həm öz qüvvələri, həm də onların tərəfdaşlarının köməyi ilə bütün hərbi quruculuq cəhdlərini çox diqqətlə izləyirik. Buna görə mən səmimi və açıq demişəm ki, əgər bizim təhlükəsizliyimizə azacıq da olsa təhdid görsək, bu təhdid harada, Ermənistan ərazisinin hansı dərinliyində olsa da, biz onu dərhal, sadəcə, məhv edəcəyik. Bunu hamı, ilk növbədə, Ermənistan rəhbərliyi bilməli və başa düşməlidir".*

**Ermənistanın bizimlə ayaqlaşma cəhdi, revanşizmdən danışması gülünc və mənasızdır.**

**Müharibə ən əvvəl iqtisadi imkan və hərbi güc deməkdir!**

*Burada isə nisbət müqayisəyəgəlməzdir:*

- Azərbaycanın 2022-ci il dövlət büdcəsi 15,6 milyard dollardır;
- hərbi büdcəmiz isə 5 milyard dollar təşkil edir;
- Ermənistanın dövlət büdcəsi 3,9 milyard dollardır;
- hərbi büdcəsi isə heç 1 milyard dollara belə çatmır - 687 milyon dollardır.

Dəqiq müqayisə isə belədir:

- Azərbaycanın 2022-ci il dövlət büdcəsi Ermənistanınkından 4 dəfə, hərbi büdcəsi isə 3,7 dəfə çoxdur!

**Ordunun döyüş qabiliyyəti, təminat və təchizatı, ruh yüksəkliyi isə müqayisəyəgəlməzdir!**

**Əgər Ermənistan yenidən müharibə istəsə, II Qarabağ müharibəsindən də betərini görəcəkdir!**

**Yox, əgər sülh istəyirsə, Azərbaycan onlara sülhün yolunu və şərtlərini də açıq-aydın şəkildə göstərir!**

Xatırladaq ki, 27 illik işğal dövründə Azərbaycan daim sülh danışıqlarında iştirak etdi.

Ermənistan qoşunlarının işğal ərazilərindən dinc yolla çıxması müqabilində statusla bağlı hətta müəyyən güzəştə hazır olduğunu da söylədi...

Ermənistan isə bütün bunları Azərbaycan tərəfinin zəifliyi kimi anladı, qudurdu, barışmaz mövqe nümayiş etdirdi!

Nəticədə Azərbaycan 44 günlük Zəfər müharibəsində Ermənistanı diz çökdürərək kapitulyasiya aktını imzalamağa vadar etdi!

*Ermənistan yenidən nala-mıxa döyür, qudurğan mövqe nümayiş etdirir, Azərbaycanın ərazi bütövlüyünü tanıması və qəbulu prosesini müxtəlif bəhanələrlə uzadır.*

*Sərhədlərin delimitasiya və demarkasiyasından yayınır, hərdən xam xəyallara qapılaraq mövqelərimizi atəşə də tutur.*

**Bir dəfə sülhə razılıq vermədi, ağır nəticələrini gördü!**

**Yenə də Azərbaycanın sülh təklifini eşitmək istəmir!**

**Amma unutmasın ki, budəfəki peşmançılığı daha ağır və şiddətli olacaqdır!**

Müzəffər Ali Baş Komandan İlham Əliyevin son xəbərdarlıqları da bu haqdadır:

- *"Ermənistan bizim qabağımızda heç vaxt dayana bilməz... Bizi heç nə dayandıra bilməz. Bizi dayandıran yeganə amil odur ki, biz müharibə istəmirik".*
- *"Bizim xoşniyyətli davranışımız şərt deyil ki, əbədi olacaq və şərt deyil ki, bu təkliflər əbədi masa üzərində qalacaq. Əgər bizim ərazi bütövlüyümüzü tanımaq istəmirlərsə, o zaman biz də onların ərazi bütövlüyünü tanımayacağıq".*

❖ ❖ ❖

ATƏT-in Minsk qrupunun ötən illərdə oxuduğu bayatılardan biri bu idi ki, "bölgədə yeni reallıq yaranıb və Azərbaycan bunu nəzərə almalıdır!"

**"Dəmir yumruğ"un qüdrəti ilə Azərbaycan həmin reallığı darmadağın etdi və özünün yeni reallığını, beynəlxalq hüquqa və gücə arxalanan reallığını yaratdı!**

ATƏT-in Minsk qrupu gec də olsa, deyəsən, yeni reallığın dərkinə başlayıb.

Həm də Azərbaycan daha elə ölkələrdən deyil ki, onun mənafelərinə kimsə barmaqarası baxsın.

Artıq BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB bizim yaratdığımız reallıqları qəbul edib!

Amma hər şey başa çatandan sonra!

*Sadəcə, ATƏT-in Minsk qrupu yeni mərhələdə nə ilə məşğul olacağını dəqiq müəyyənləşdirməlidir.*

*Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olmamalıdır!*

Azərbaycan rəhbəri münaqişəni onların yerinə müzəffər ordusu ilə bir yerdə həll edib!

Hətta belə bir niyyətə düşsələr belə, Prezident İlham Əliyev buna yol verməyəcəkdir!

Daha lətifələrə səbəb olan mənasız gediş-gəlişə, dişsiz fəaliyyətə, qəbuledilməz təkliflərin hazırlanmasına hacət yoxdur!

Cənab İlham Əliyev ATƏT-in Minsk qrupunun əldən-ayaqdan gedəcəyi təqdirdə yeni sülh prosesinə hansı formada kömək edə biləcəklərini də dəqiqləşdirdi: *"Birincisi, bu qrupun nə dərəcədə həyat qabiliyyətli olması aydınlaşdırılmalıdır. İkincisi, onlar nə ilə məşğul olmağı planlaşdırdıqlarını əks etdirən gündəlik təqdim etməlidir, özü də gündəlik onların üçünün arasında razılaşdırılmalıdır. Daha sonra Azərbaycan və erməni tərəfi buna öz münasibətini bildirməlidir. Hələlik bu iki ilk bənd yoxdur. Buna görə də prinsip etibarilə danışmaq üçün mövqe yoxdur".*

Bundan daha aydın, dəqiq və konkret söyləmək mümkün deyil!

❖ ❖ ❖

Ermənistanın kaputilyasiya aktına qol çəkdikdən sonra müxtəlif bəhanələrlə yayınmaq istədiyi məsələlərdən biri Zəngəzur dəhlizinin açılmasıdır.

Paşinyan gah müxalifətdən qorxduğunu bəhanə gətirir, beləliklə, zaman udmağa çalışır, gah da Zəngəzurdan dəhliz yox, yol açılacağını söyləyir və s.

**Sözünün sahibi olan Prezident İlham Əliyev isə lap əvvəldən məsələni açıq və kəskin qoyub:**

**- Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi olacaq və işləyəcək!**

Əslində, Zəngəzur dəhlizi hamıdan çox blokadada olan Ermənistana gərəkdir.

Azərbaycan da Naxçıvan və Türkiyə ilə birbaşa quru yolunun mövcudluğunda maraqlıdır və bunu gizlətmir.

Türkiyə isə bu qısa yolla Orta Asiyaya çıxmaq niyyətindədir.

Ermənistanda hərbi bazası olan Rusiyanın da dəmir yolu ilə ucuz başa gələn daşımalara marağı var.

**Bütövlükdə region dövlətləri Zəngəzur dəhlizini istəyirlər və bu istiqamətdə müxtəlif formatlı əməkdaşlıq barədə düşünürlər.**

*Məğlub dövlətin qalib ölkə qarşısında duruş gətirməsi və regionun güclü dövlətlərinin istəyi ilə hesablaşmaması ağlasığmazdır.*

Cənab İlham Əliyevin diplomatik uzaqgörənliyi nəticəsində dünya leksikonuna "Zəngəzur dəhlizi" kimi düşən bu ticarət və əməkdaşlıq yolu vaxtilə Azərbaycana məxsus olub və sovet dövründə işləyib.

**Dövlət başçısı İlham Əliyev bu dəhlizdən təkcə qatarların və avtomobillərin deyil, təbii qaz nəqli kəmərlərinin və elektrik xətlərinin də keçəcəyini nəzərdə tutur.**

**Deməli, gec-tez belə də olacaqdır!**

Artıq Zəngəzur üzərindən hava yolu işləyir, təyyarələr gedib gəlir!

Həm də Ermənistana deyilmədən, ondan (bir az böyük çıxmasın) icazə alınmadan.

Çünki bu, beynəlxalq dəhlizdir və dünya aviasiyasının mövcud qaydalarına uyğundur.

*Zəngəzur dəhlizinin reallaşması artıq həll olunmuş məsələdir.*

*Ona mane olmağa məğlub və gözdəndüşmüş Ermənistanın gücü çatmaz.*

*Cənubi Qafqazın ən güclü dövləti və söz sahibi uzun müddətdir ki, Azərbaycandır!*

❖ ❖ ❖

**Prezident İlham Əliyevin yaxın və uzaq hədəfləri çoxdur və onların hər birinin reallaşdırılacağı kimsədə zərrə qədər də şübhə doğurmur!**

Bu gün müstəqil Azərbaycan Avropanın xam neft və təbii qazla təchizatında etibarlı tərəfdaş sayılır.

Okeana çıxış olmayan bir ölkə logistika mərkəzinə çevrilib.

Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri fəaliyyətə başlayıb və getdikcə öz səmərəliliyini daha çox isbata yetirir.

Azərbaycan dünya türk birliyinin yaranmasında mühüm rol oynayan ölkələrdəndir.

**Prezident İlham Əliyev Qoşulmama Hərəkatına rəhbərliyi dövründə bu qurumun nüfuzunu və imkanlarını daha da artırdı, şəxsi təşəbbüsləri, ədalətli və cəsarətli mövqeyi ilə dünya dövlətlərinin xalqlarının dərin hörmətini qazandı, "vaksin millətçiliyinin"mövcudluğunun qəbuledilməzliyini açıq şəkildə bəyan etdi, kəskin etirazını bildirdi.**

*Azərbaycan dünyanın və bir sıra ölkələrin pandemiyadan əziyyət və zərər çəkdiyi bir dövrdə onlara dayaq oldu, dəfələrlə real kömək və yardımlar göstərdi.*

Avropa İttifaqı ilə hər iki tərəfin maraqları təmin olunan sazişin imzalanacağı vaxt da uzaqda deyil, sənədin 90-92 faizi razılaşdırılıb.

Həm də bu əlaqələrin çoxtərəfli və ən müxtəlif sahələri əhatə edəcəyi gözlənilir.

**Ancaq prinsipial məsələlərdə geri çəkilmək, milli maraqların təminində cüzi də olsa güzəştə getmək söhbəti mümkün deyil!**

İkili standartlar isə yenə də mövcuddur, dövlətimiz heç zaman belə yanaşmalarla razılaşmayıb və yenə də razılaşmayacaqdır.

❖ ❖ ❖

Müasir dünya sürprizlərlə doludur və artıq qəribəliklərə təəccüblənməməyə alışmalıyıq!

Kimin ağlına gələrdi ki, COVID-19 adlı bir pandemiya bütün dünyanı caynağına alacaq, milyonlarla insanın həyatına son qoyacaq, dövlətləri qapanmağa, sərhədlərini bağlamağa sövq edəcək, iqtisadi inkişafı ləngidəcək və digər ciddi fəsadlar törədəcəkdir.

Kim düşünərdi ki, özünü dünya demokratiyasının ağsaqqalı və qurucusu hesab edən ABŞ-da seçkilərdən sonra narazı elektorat Kapitoliyə hücum edəcək, bir neçə insan öldürüləcək, yaralanacaqdır.

Azərbaycan 44 günlük Zəfər müharibəsində Ermənistan ordusunu məhv edərək düşməni diz çökdürəcək, 27 illik işğala göz qırpımında son qoyacaq, təslim sənədini imzalatdıracaqdır.

Artıq bunların hamısı hamının gördüyü, bildiyi və qəbul etdiyi reallıqlardır.

**Prezident İlham Əliyevin dahiyanə uzaqgörənliyini sübut edən bir fikrinə də diqqət çəkirik:** *"Mən öz çıxışlarımda dəfələrlə deyirdim ki, indi güc amili ön plana çıxır və biz buna hazır olmalıyıq. Deyirdim ki, bu, bizim seçimimiz deyil. Biz hər zaman beynəlxalq hüququn aliliyini müdafiə edirdik və ümid edirdik ki, bu, bizim məsələmizin həllinə, bizə köməklik göstərəcək. Amma görürük ki, bu yoxdur, bu işləmir".*

**Bəli, Azərbaycan hüququn gücü ilə həll olunmayan problemini ordusunun və iqtisadiyyatının gücü ilə daha tez və əhatəli həll etdi!**

**Çünki dövlət vaxtında bu vəziyyətə hazırlaşmışdı!**

**Həm də ciddi və hərtərəfli!**

Və müdrik rəhbərimiz İlham Əliyev digər zəruri hazırlıqlarını da davam etdirir.

**Cənab İlham Əliyevdən daha bir sitat:** *"Bu gün Azərbaycan beynəlxalq aləmin məsuliyyətli üzvü kimi və Qoşulmama Hərəkatının Sədri kimi, əlbəttə, bundan sonra da beynəlxalq hüququn aliliyini müdafiə edəcək. Biz dünya təsisatlarının - BMT və İkinci Dünya müharibəsindən sonra yaradılmış digər təsisatların fəaliyyətində fəal iştirak edəcəyik, bu imkanlardan bu gün daha rahat istifadə edəcəyik. Çünki artıq biz Qarabağ problemi kimi ağır yükü çiynimizdən atdıq və hesab edirəm ki, yeni dünya düzənində də təşəbbüs göstərən ölkələrdən biri olacağıq. Çünki de-fakto bu, artıq baş verib və biz bu de-fakto vəziyyətə tam hazırıq, bütün daxili resurslarla hazırıq".*

Dünyada, habelə Cənubi Qafqazda yaranmış yeni vəziyyəti və mövcud reallıqları Ermənistan və onun havadarları da bilməli və qəbul etməlidirlər.

Belədə hər kəs sülhə, inkişafa və əməkdaşlığa daha yaxşı xidmət göstərmiş olar!

**Bəxtiyar SADIQOV**

1992 2022

# YENİ AZƏRBAYCAN PARTİYASI

## milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır

30

# Yeni Azərbaycan Partiyası: yeni proqramla möhtəşəm zirvələrə doğru




**YAP Azərbaycanın ağır sosial-iqtisadi, siyasi və mənəvi-psixoloji böhranla üzləşdiyi dövrdə xalqımızın vətənpərvər insanlarının, ziyalıların təşəbbüsü və iştirakı ilə tarixi zərurətdən irəli gələrək yaranmışdır. 1992-ci il noyabrın 21-də Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə keçirilən təsis konfransında partiyanın proqram və nizamnaməsi qəbul olundu.**

Partiyanın proqramında müstəqillik, dövlətçilik, qanunçuluq, azərbaycançılıq, vətənçilik, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi, sosial ədalət kimi ideoloji prinsiplər müəyyən edildi. Proqramda hüquqi, demokratik, dünyəvi dövlətin və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatının inkişafı, milli-mənəvi dəyərlərin qorunması və Azərbaycanın dünya birliyində özünə layiqli yer tutmasına dair məqsədlər öz əksini tapdı.

Ötən illər ərzində YAP milli maraqlara əsaslanan fəaliyyət göstərməklə ictimai-siyasi proseslərdə mühüm rol oynamış, qarşısına qoyduğu məqsəd və vəzifələri uğurla yerinə yetirmişdir. Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizin inkişaf etməsi və onun dünya birliyində mövqeyinin möhkəmlənməsi YAP-a böyük nüfuz qazandırdı. "Yeni, müstəqil Azərbaycan uğrunda!" çağırışını proqramında irəli sürən YAP məhz Ulu Öndər Heydər Əliyevin apardığı məqsədyönlü siyasətin həyata keçirilməsində yaxından iştirak etməklə dövlət müstəqilliyinin dönməzliyinin təmin edilməsinə böyük töhfələr verdi.

YAP Azərbaycanın siyasi sisteminə xalqımızın mənafeyini təcəssüm etdirən güclü siyasi təşkilat kimi daxil olub. Partiya 30 ilə yaxındır ki, qarşısına qoyduğu məqsədlərə (dövlət müstəqilliyinin möhkəmləndirilməsi, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin, sosialyönümlü iqtisadiyyatın inkişafı, milli-mənəvi dəyərlərin qorunması və s.) nail olunmasında böyük nailiyyətlər əldə edib. Hazırda 800 min nəfərə yaxın üzvü olan partiya Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin aparılmasında, onun təbliğində yaxından iştirak edir.

Cəmiyyət daim yeniləşir, ictimai münasibətlərin inkişaf səviyyəsi yeni çağırışlar və reallıqlar yaradır. Bütün bunlar da öz növbəsində YAP-ın hakim partiya kimi qarşısında yeni tələblər və vəzifələr qoyur. Burada bir məqamı xüsusilə qeyd etməliyik ki, YAP həm cəmiyyətin irəliyə doğru, keyfiyyətcə yeni inkişaf mərhələlərinə daxil olmasını və onun mütərəqqi inkişafını təmin edən aparıcı siyasi qüvvə kimi çıxış edir, həm də yaratdığı yeni çağırışları və reallıqları özü tənzimləyərək, gələcəyə istiqamətlənmiş məqsəd və vəzifələr müəyyənləşdirir.

Məhz bundan irəli gələrək, YAP-ın 2021-ci il martın 5-də keçirilmiş VII qurultayında partiyanın qarşısına yeni hədəflər və vəzifələr qoyulmuşdur. YAP-ın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultaydakı genişməzmunlu çıxışında partiyanın yarandığı vaxtdan indiyə kimi müstəqil dövlətçiliyin və demokratik siyasi sistemin möhkəmlənməsi, ölkəmizin davamlı inkişafı, milli birliyin və vətəndaş həmrəyliyinin təmin olunması istiqamətində göstərdiyi fəaliyyətlə bağlı dəyərli fikirlər irəli sürmüşdür. Prezident İlham Əliyevin dediyi kimi: "Partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var".

Prezident İlham Əliyev qurultaydakı çıxışı zamanı YAP-ın müasir dövrün çağırışlarını özündə əks etdirən yeni proqramının hazırlanmasının vacibliyini bildirmişdir.

Qeyd edək ki, Azərbaycan dövlətinin bütün sahələrində əldə olunan uğurlar YAP-ın yeni proqramının hazırlanmasını şərtləndirən mühüm faktorlardır. Prezident İlham Əliyevin çıxışlarından irəli gələn vəzifələri rəhbər tutaraq və ölkəmizin davamlı inkişafı, Azərbaycanın xarici siyasət sahəsində strateji maraqları, dördüncü sənaye inqilabının ictimai həyata göstərdiyi təsirləri və 44 günlük Vətən müharibəsində şanlı qələbənin yaratdığı reallıqları nəzərə alaraq, YAP-ın "Biz birlikdə güclüyük!" devizi altında yeni proqramı işlənib hazırlanmış və partiyanın İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

Prezident İlham Əliyevin apardığı siyasətin məqsəd və vəzifələri eyni zamanda onun sədri olduğu partiyanın məqsəd və vəzifələri deməkdir. Buna görə də Prezident İlham Əliyevin təsdiq etdiyi, cəmiyyətin müxtəlif sahələrinin inkişafını nəzərdə tutan milli prioritetlər, dövlət proqramları, konsepsiyalar, İnkişaf strategiyaları və fəaliyyət planlarındakı müddəalar partiyanın proqramında öz əksini tapmışdır.

Partiyanın yeni proqramı beş fəsildən - "Partiyanın inkişafı və uğurları", "Siyasi dəyərlər və prinsiplər", "Partiyadaxili münasibətlərin və partiyanın fəaliyyətinin əsasları", "Partiyanın əsas hədəfləri" və "Müzəffər liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya" ibarətdir. Hər bir fəsil sosial-iqtisadi, siyasi, mənəvi-mədəni, ordu quruculuğu, xarici siyasət, vətəndaş cəmiyyəti və s. sahələri əhatə edən bölmələrə ayrılır. Hər bir bölmədə partiyanın qarşısında dayanan hədəflər və vəzifələr göstərilir.

YAP-ın proqramında partiyanın inkişaf tarixinə və uğurlarına nəzər salınır, onun Heydər Əliyev yoluna və irsinə sadiqliyi, qarşısına qoyduğu məqsəd və vəzifələri böyük məsuliyyətlə, layiqincə yerinə yetirdiyi vurğulanır. Hüquqi dövlətin və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatı münasibətlərinin inkişafı istiqamətində YAP-ın fəaliyyətinin tarixi-siyasi əhəmiyyəti qeyd olunur. Bildirilir ki, xalqımızın Heydər Əliyevə dərin inam və etimadı nəticəsində YAP yarandıqdan sonra respublikanın bütün bölgələrində onun təşkilatlanması prosesi başladı, partiyanın sıraları sürətlə genişləndi. Heydər Əliyevin müdrik siyasəti sayəsində müstəqil dövlət quruculuğunda əldə olunan uğurlar, Azərbaycanın dünya birliyində mövqeyinin möhkəmlənməsi YAP-ın xalq arasındakı nüfuzunu getdikcə artırdı.

Cənab İlham Əliyevin YAP-ın I qurultayında (20-21 dekabr 1999-cu il) partiyanın sədr müavini, II qurultayında (21 noyabr 2001-ci il) partiya sədrinin birinci müavini, III qurultayında (26 mart 2005-ci il) isə partiyanın sədri seçilməsi təşkilatın həyatında böyük tarixi hadisə oldu. 2003-cü, 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilmiş prezident seçkilərində cənab İlham Əliyevin YAP-ın namizədi kimi qələbə qazanması partiyanın nüfuzunu daha da artırdı və onun sosial bazasını möhkəmləndirdi. Prezident İlham Əliyevin uzaqgörən və məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın əldə etdiyi uğurlar YAP-ın siyasi sistemdə, beynəlxalq partiyalararası münasibətlərdə mövqeyini daha da gücləndirdi.

Yeni proqramda ideya-siyasi varislik prinsipinə əsaslanmaqla partiyanın əvvəlki proqramında əksini tapmış və müasir dövrün tələblərinə cavab verən, cəmiyyətin ahəngdar inkişafını təmin edən ideoloji prinsiplər qorunub saxlanılmışdır. YAP demokratik siyasi dəyərlərə və prinsiplərə əsaslanır ki, onların içərisində Heydər Əliyev yolu müstəsna yer tutur. Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası özündə siyasi müdrikliyi, illərlə toplanmış böyük dövlətçilik təcrübəsini, qətiyyətli siyasi iradəni və Azərbaycanın hərtərəfli inkişafını nəzərdə tutan ideya-siyasi baxışları ehtiva edir. Bu siyasi xətt müstəqil dövlətçiliyin möhkəmlənməsini və inkişafını, xalqımızın sülh və əmin-amanlıq şəraitində yaşamasını şərtləndirir.

Milli maraqların üstünlüyü, güclü, müstəqil, hüquqi, demokratik dövlət, inkişaf edən şaxələndirilmiş iqtisadiyyat, idarəçilikdə və milli ideologiyada varislilik, azad insan, azad cəmiyyət, xalq-hakimiyyət vəhdəti, inkişaf etmiş vətəndaş cəmiyyəti, söz və mətbuat azadlığı, siyasi plüralizm, multikulturalizm və tolerantlıq kimi dəyərlər Heydər Əliyev yolunu səciyyələndirən əsas xüsusiyyətlərdir. Heydər Əliyev irsi Azərbaycanın bu günü və gələcəyi üçün həyati əhəmiyyət kəsb edən siyasi məktəb kimi özünü təsdiq etmişdir.

Ulu Öndərin siyasi kursunu Prezident İlham Əliyevin yaradıcı şəkildə, uğurla davam etdirməsi, onu yeniliklərlə zənginləşdirməsi ölkəmizin tərəqqisini və yüksək sosial rifah şəraitində yaşamasını təmin edir. Bütün bunların nəticəsində Azərbaycan dünyada davamlı inkişaf edən, regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasına mühüm töhfələr verən dövlət kimi tanınır.

> Prezident İlham Əliyevin apardığı siyasətin məqsəd və vəzifələri eyni zamanda onun sədri olduğu partiyanın məqsəd və vəzifələri deməkdir. Buna görə də Prezident İlham Əliyevin təsdiq etdiyi, cəmiyyətin müxtəlif sahələrinin inkişafını nəzərdə tutan milli prioritetlər, dövlət proqramları, konsepsiyalar, İnkişaf strategiyaları və fəaliyyət planlarındakı müddəalar partiyanın proqramında öz əksini tapmışdır.
>
> Partiyanın yeni proqramı beş fəsildən - "Partiyanın inkişafı və uğurları", "Siyasi dəyərlər və prinsiplər", "Partiyadaxili münasibətlərin və partiyanın fəaliyyətinin əsasları", "Partiyanın əsas hədəfləri" və "Müzəffər liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya" ibarətdir. Hər bir fəsil sosial-iqtisadi, siyasi, mənəvi-mədəni, ordu quruculuğu, xarici siyasət, vətəndaş cəmiyyəti və s. sahələri əhatə edən bölmələrə ayrılır. Hər bir bölmədə partiyanın qarşısında dayanan hədəflər və vəzifələr göstərilir.
>
> Yeni proqramda ideya-siyasi varislik prinsipinə əsaslanmaqla partiyanın əvvəlki proqramında əksini tapmış və müasir dövrün tələblərinə cavab verən, cəmiyyətin ahəngdar inkişafını təmin edən ideoloji prinsiplər qorunub saxlanılmışdır. YAP demokratik siyasi dəyərlərə və prinsiplərə əsaslanır ki, onların içərisində Heydər Əliyev yolu müstəsna yer tutur. Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası özündə siyasi müdrikliyi, illərlə toplanmış böyük dövlətçilik təcrübəsini, qətiyyətli siyasi iradəni və Azərbaycanın hərtərəfli inkişafını nəzərdə tutan ideya-siyasi baxışları ehtiva edir. Bu siyasi xətt müstəqil dövlətçiliyin möhkəmlənməsini və inkişafını, xalqımızın sülh və əmin-amanlıq şəraitində yaşamasını şərtləndirir.
>
> Milli maraqların üstünlüyü, güclü, müstəqil, hüquqi, demokratik dövlət, inkişaf edən şaxələndirilmiş iqtisadiyyat, idarəçilikdə və milli ideologiyada varislilik, azad insan, azad cəmiyyət, xalq-hakimiyyət vəhdəti, inkişaf etmiş vətəndaş cəmiyyəti, söz və mətbuat azadlığı, siyasi plüralizm, multikulturalizm və tolerantlıq kimi dəyərlər Heydər Əliyev yolunu səciyyələndirən əsas xüsusiyyətlərdir. Heydər Əliyev irsi Azərbaycanın bu günü və gələcəyi üçün həyati əhəmiyyət kəsb edən siyasi məktəb kimi özünü təsdiq etmişdir.

YAP-ın mövqeyinə görə, siyasi idarəçilikdə və dövlətçilik şüurunda varislik prinsipi cəmiyyətin inkişafında əhəmiyyətli rol oynayır. Buna görə də partiyanın proqramında Azərbaycan xalqının müstəqil dövlətçilik ənənələrinin varislik əsasında qorunub saxlanılması əsas prinsiplərdən biri kimi qiymətləndirilir. Partiyanın 1918-ci il mayın 28-də müsəlman Şərqində qurulmuş ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin demokratik ənənələrinə sadiq olduğu və onları yaşatdığı bildirilir.

YAP siyasi dialoqa partiyalararası münasibətlərdə əməkdaşlığı möhkəmləndirən mühüm faktorlardan biri kimi baxır. Partiyanın proqramında qeyd edildiyi kimi, siyasi həmrəylik şəraitində konstruktivliyi təmin edən mütərəqqi ideyalar formalaşır, yeni siyasi konfiqurasiya şəraitində siyasi partiyalar arasında əməkdaşlıq və həmrəylik möhkəmlənir. Xüsusilə, vətəndaş həmrəyliyinin və siyasi dialoqun mövcudluğu ümummilli məsələlərin həllində vacib əhəmiyyət daşıyır. Buna görə də Azərbaycanın tərəqqisini təmin edən amillərdən biri milli birlik və siyasi həmrəylikdir. Ölkəmizdə yeni siyasi konfiqurasiyanın yaranmasında və partiyalararası dialoqun möhkəmlənməsində fəal iştirakı, geniş beynəlxalq əlaqələri YAP-ın cəmiyyətdə mövqeyini möhkəmləndirir.

Partiyanın proqramında multikulturalizmin inkişafına və onun tərkib hissələrinə - milli kimliyin və mədəni müxtəlifliyin qorunması, mədəniyyətlərarası dialoqa sadiqlik, ölkəmizdə multikulturalizmin inkişafı sahəsində qazanılmış nailiyyətlərin beynəlxalq miqyasda təbliğinin gücləndirilməsi və s. böyük əhəmiyyət verilir ki, bu da təsadüfi deyildir. Çünki Azərbaycan dünyada mədəniyyətlərarası və dinlərarası dialoqun nəinki milli, eyni zamanda qlobal səviyyədə genişlənməsi üçün mühüm addımlar atan dövlət kimi tanınır. Buna misal olaraq, multikulturalizmin və tolerant dəyərlərin inkişafına həsr olunmuş xeyli sayda beynəlxalq tədbirlərə Azərbaycanın evsahibliyi etdiyini göstərmək olar. Milli-dini münasibətlərlə bağlı Prezident İlham Əliyevin apardığı siyasət xalqımız tərəfindən dəstəklənir, milli-etnik qruplar və dini konfessiyalar ümumi birgəyaşayış qaydaları əsasında özlərinin mənəvi dəyərlərini qoruyub saxlayırlar. Onlar azərbaycançılıq məfkurəsi ətrafında birləşməklə ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edirlər.

Partiyanın proqramında demokratik ənənələrə əsas dəyərlərdən biri kimi baxılır, eyni zamanda göstərilir ki, "YAP dövlətin idarə olunmasında və partiyadaxili fəaliyyətin təşkilində demokratik prinsipləri əsas götürür, siyasətdə açıq və peşəkar münasibətlərin tərəfdarı kimi çıxış edir". YAP hüquqi dövlətin və vətəndaş cəmiyyətinin inkişafı üçün demokratik dəyərlərə böyük əhəmiyyət verir. Partiya hesab edir ki, demokratik siyasi münasibətlər dövlətin tərəqqisini şərtləndirən vacib amillərdəndir. Azərbaycanda aparılan genişmiqyaslı islahatlar dövlət idarəçiliyinin və siyasi sistemin təkmilləşməsində, iqtisadiyyatın inkişafında, əhalinin sosial müdafiəsinin gücləndirilməsində, xalqımızın milli-mədəni irsinin və dəyərlərinin qorunmasında böyük əhəmiyyət kəsb edir. Bu islahatlar Azərbaycanın gələcək inkişafında da yeni uğurların bünövrəsini qoyur.

YAP-ın proqramında partiyadaxili münasibətlərin və partiya fəaliyyətinin əsasları dəqiq şəkildə müəyyənləşdirilir, onların peşəkarlıq, işgüzar münasibətlər, şəxsi inkişaf, sağlam rəqabət, etik davranış və milli dəyərlər, innovativ inkişaf və kreativlik, elmilik və müasirlik kimi meyarlara söykəndiyi göstərilir. Qeyd olunur ki, Azərbaycan xalqının maraqlarına cavab verən və mütərəqqi xarakter daşıyan müasir dəyərlərdən bəhrələnmək YAP-ın fəaliyyətinin əsaslarından biridir. Partiya digər siyasi təşkilatlarla və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın demokratik prinsiplər əsasında möhkəmlənməsinə üstünlük verir.

YAP-ın yeni proqramında "Heydər Əliyev irsinin təbliği və təşviqi", "Güclü iqtisadiyyat və davamlı inkişaf", "İnklüziv cəmiyyət, ədalətli sosial təminat və insan kapitalının inkişafı", "Şəffaflığın artırılması", "Vətəndaş cəmiyyətinin inkişafı", "Azərbaycan dili və dünya azərbaycanlılarının həmrəyliyi", "Mədəni irsin və milli-mənəvi dəyərlərin qorunması", "Vətəndaş həmrəyliyinin təminatı", "Milli maraqlar və xarici siyasət", "Ordu quruculuğu" və "İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdış"la bağlı hədəflər və onlara nail olmaq üçün vəzifələr göstərilmişdir.

Proqramda Azərbaycanı tərəqqiyə aparan Heydər Əliyev irsinin indiki və gələcək nəsillər üçün zəngin xəzinə, Vətənə, xalqa və dövlətə xidmət nümunəsi olduğu bildirilir. Xüsusilə gənc nəslin dövlətçilik və vətənpərvərlik ruhunda formalaşmasında Ulu Öndərin irsinin təbliğinin vacibliyi göstərilir. Heydər Əliyevin hələ sovetlər dönəmində respublikaya rəhbərlik etdiyi dövrdə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən böyük uzaqgörənliklə Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşamasını təmin edəcək sosial-iqtisadi və milli-mənəvi bünövrə yaratdığı vurğulanır.

Proqramda ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-mədəni sferalarda, idarəetmə münasibətlərində və xarici siyasətdə hədəflər müəyyən edilərkən bu sahələrdə əldə olunmuş nailiyyətlər əsas götürülür. Güclü iqtisadiyyat və davamlı inkişaf naminə hədəflərin sırasına makroiqtisadi sabitlik və yüksək iqtisadi artım, uğurlu neft strategiyası, qeyri-neft sektorunun inkişafı, daxili və xarici təsirlərə dayanıqlıq, rəqəmsal inkişaf və nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, ətraf mühitin, ekoloji tarazlığın qorunması və s. daxil edilmişdir.

Əhalinin sosial müdafiəsinin təmin olunması və insan kapitalının inkişaf etdirilməsi Prezident İlham Əliyevin apardığı siyasətin prioritet istiqamətlərindəndir. Bu sahədə görülən işlərin nəticəsində Azərbaycanda xeyli sayda yeni iş yerləri açılır, əməkhaqları, pensiyalar və digər sosial ödənişlər artırılır, işsizlik və yoxsulluq səviyyəsi ildən-ilə azaldılır. Əhalinin gəlirlərinin artırılması istiqamətində atılan addımlar, o cümlədən əməkhaqlarının, pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin məbləğlərinin layiqli səviyyəsinə nail olunması, əmək siyasəti və əməyin ödənilməsi sahəsində islahatların həyata keçirilməsi inklüziv cəmiyyətin, ədalətli sosial təminatın və insan kapitalının inkişafına böyük stimul verir. Bu uğurlardan çıxış edən YAP hamı üçün layiqli həyat səviyyəsinin təmin olunmasını əsas hədəflərindən biri hesab edir. İnklüziv cəmiyyətin inkişafı və yüksək sosial rifahın təmin olunması, paytaxt və regionların tarazlı inkişafı, XXI əsrin tələblərinə uyğun elm və təhsil, əhalinin sağlamlığının təmin olunması və yüksəkkeyfiyyətli səhiyyə, gender bərabərliyi və ailə institutunun inkişafı, gənclərin potensialının gücləndirilməsi və yaşlıların təcrübəsindən faydalanması sahəsində konkret vəzifələr müəyyən edilir.

İdarəetmə münasibətlərində şəffaflığın təmin edilməsi məsələsi YAP-ın proqramında xüsusi yer tutur. Bu sahədə vəzifələr müəyyən olunarkən şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə istiqamətində aparılan dövlət siyasətinin nəticəsində əldə edilmiş nailiyyətlərə əsaslanılır. Azərbaycanın "Açıq Hökumət Tərəfdaşlığı" beynəlxalq təşəbbüsünə ilk qoşulan dövlətlərdən biri kimi açıq hökumət prinsiplərinin təşviqinə böyük töhfə verdiyi vurğulanır. İnsan hüquqlarının və şəffaflığın təmin olunmasında, ictimai nəzarətin artırılmasında, korrupsiyaya qarşı mübarizədə və qanunvericiliyin təkmilləşdirilməsində "Açıq hökumət" və "Elektron-hökumət" platformalarının əhəmiyyəti göstərilir.

Azərbaycanda "Açıq hökumət" platformasının həyata keçirilməsinin idarəetmə sistemində şəffaflığı artıran vacib amillərdən biri olduğu vurğulanır və bununla bağlı partiyanın hədəfləri (idarəetmə münasibətlərinin dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi; dövlət xidmətlərinin göstərilməsində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi; dövlət orqanlarının göstərdikləri xidmətlərin elektronlaşdırılması; maliyyə şəffaflığının təmin edilməsi) sadalanır.

Dövlət strukturlarında və dövlət xidmətlərinin həyata keçirilməsində informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə olunması və innovativ həllərin tətbiqi mühüm əhəmiyyət daşıyır. YAP bu sahədə görülən işlərin daha da təkmilləşməsinin vacibliyini nəzərə alaraq, vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi, qarşılıqlı inteqrasiyanın təmin olunması sahəsində vahid yanaşmanın və standartların tətbiqi istiqamətində yeni hədəflər müəyyənləşdirmişdir. Bununla yanaşı, partiya idarəetmədə çevikliyi və şəffaflığı təmin edən ictimai nəzarətə böyük diqqət yetirir.

YAP ictimai nəzarətin həyata keçirilməsində vətəndaş cəmiyyəti institutlarının oynadığı rolu yüksək qiymətləndirir. Buna görə də partiya dövlət və yerli özünüidarəetmə orqanları ilə vətəndaş cəmiyyəti institutları arasında səmərəli qarşılıqlı fəaliyyətin genişləndirilməsi, dövlət orqan və qurumlarında kollegial qərarların qəbulu zamanı, dövlət komissiyaları və işçi qruplarda vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının təmsilçiliyinin və iştirakının təmin edilməsi, dövlət orqan və qurumları yanında yaradılmış ictimai şuraların fəaliyyətində səmərəliliyin artırılması, ictimai şuralarda müzakirə edilən məsələlərin əhatə dairəsinin genişləndirilməsi və s. hədəflərlə çıxış edir.

Korrupsiyanın qarşısının alınması, dövlət orqanlarının fəaliyyətində və özəl sektorda şəffaflığın təmin edilməsi, qanunvericiliyin təkmilləşdirilməsi və vətəndaş cəmiyyətinin inkişafına dair partiyanın hədəfləri müəyyən edilmişdir. Bundan əlavə, partiyanın proqramında Azərbaycan dili və dünya azərbaycanlılarının həmrəyliyi, xalqımızın milli-mədəni irsinin və mənəvi dəyərlərin qorunması, vətəndaş birliyinin təminatı, milli maraqlar və xarici siyasət, ordu quruculuğu kimi məsələlərə geniş yer verilmiş, bu sahələrdə qarşıda duran vəzifələr göstərilmişdir.

44 günlük Vətən müharibəsi Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini özündə əks etdirən mühüm tarixi hadisədir. Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın hərbi birləşmələrini "dəmir yumruq" əməliyyatı ilə darmadağın etməsi və ölkəmizin ərazi bütövlüyünün bərpası xalqımızın milli qürur hissini özünə qaytardı. Müharibənin ilk günlərindən başlayaraq Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitləri ilə bir yerdə oldu, onlarda ruh yüksəkliyi yaratdı, xalqımız, o cümlədən konstruktiv mövqe tutan siyasi partiyalar da dövlət başçımızın apardığı siyasət ətrafında sıx birləşdi. Azərbaycan hərbçilərinin torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərdə şücaət göstərməsi, bu yolda şəhidlik zirvəsinə ucalması xalqımızın yenilməzlik, mətinlik və qəhrəmanlığının ifadəsi oldu, şanlı qələbə ilə Azərbaycan bütün dünyaya öz gücünü göstərdi.

Vətən müharibəsində qələbə bölgədə yeni geosiyasi və geoiqtisadi reallıqlar yaratmışdır. YAP-ın proqramında göstərildiyi kimi, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 2021-ci il 7 iyul tarixli fərmanı bu kontekstdə mühüm tarixi-siyasi hadisə oldu. Qarabağ iqtisadi rayonunun yaradılması ilə "Qarabağ Azərbaycandır!" şüarı özünün siyasi-hüquqi təsdiqini tapdı. Şərqi Zəngəzur iqtisadi rayonu yaradılmaqla Azərbaycanın tarixi əraziləri arasındakı ənənəvi sosial-iqtisadi və mədəni bağlılığın bərpası istiqamətində mühüm addım atıldı.

Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından köçkün düşən insanların doğma torpaqlarına qayıdışının təmin edilməsi ilə bağlı YAP-ın proqramında dəqiq hədəflər - layiqli yaşayışın bərpası üçün işğaldan azad olunmuş ərazilərdə geniş quruculuq işlərinin aparılması və dayanıqlı məskunlaşmanın təmin edilməsi, bu ərazilərin ölkənin ən abad guşələrindən birinə çevrilməsi, regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması, regionun sürətli iqtisadi inkişafının təmin olunması üçün stimullaşdırıcı tədbirlərin görülməsi, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının hazırlanması və həyata keçirilməsi müəyyən edilmişdir. İşğaldan azad olunmuş ərazilərdə hazırda geniş quruculuq işlərinin aparılması Vətənini sevən hər bir azərbaycanlıda böyük qürur hissi yaradır.

Bütün bunlar sübut edir ki, YAP möhtəşəm zirvələrə yol açan, dünənin, bu günün və gələcəyin partiyasıdır. YAP-ın yeni proqramı müasir dövrün çağırışlarını və ölkəmizin davamlı inkişafını nəzərə almaqla özündə mütərəqqi dəyər və meyarlar, prinsiplər, hədəflər və vəzifələri birləşdirir. İnanırıq ki, onların qorunması və yerinə yetirilməsi Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət kimi tərəqqisinə böyük təkan verəcək, onun dünya birliyində mövqeyini daha da möhkəmləndirəcəkdir.

*Əminliklə deyə bilərik ki, YAP ümumxalq partiyası olaraq qüdrətli dövlət və yüksək rifah cəmiyyəti naminə üzərinə düşən missiyanı "Biz birlikdə güclüyük!" çağırışı ilə şərəf və ləyaqətlə yerinə yetirəcəkdir.*

**Mübariz QURBANLI,**
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü***

## “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

“Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1669; 2019, № 1, maddə 35, № 3, maddə 381, № 12, maddə 1892; 2020, № 1, maddə 1, № 5, maddə 521, № 7, maddə 831, № 9, maddə 1136; 2021, № 2, maddə 113, № 7, maddələr 700, 708, № 8, maddə 895) aşağıdakı dəyişikliklər edilsin:

1. 20-ci maddə üzrə:

1.1. 20.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“20.2. Aşağıdakı şəxslərin peşə hazırlığı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ödənişsiz təşkil olunur:

20.2.1. işsiz şəxslərin;

20.2.2. bu Qanunun 4.1.3-cü maddəsində nəzərdə tutulan mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub, digər məşğulluğu olmayan işaxtaran şəxslərin;

20.2.3. il ərzində müvafiq inzibati ərazi vahidi üzrə peşə hazırlığına cəlb olunan işsiz şəxslərin 20 faizindən çox olmamaq şərtilə işaxtaran şəxslərin.”;

1.2. 20.2-1-ci maddədə “20.2-ci maddəsi” sözləri “20.2.2-ci və 20.2.3-cü maddələri” sözləri ilə əvəz edilsin.

2. 21-ci maddə üzrə:

2.1. 21.1-ci maddəyə “işsiz,” sözündən sonra “bu Qanunun 4.1.3-cü maddəsində nəzərdə tutulan mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub, digər məşğulluğu olmayan işaxtaran şəxslərin,” sözləri əlavə edilsin;

2.2. 21.2-ci maddənin birinci və ikinci cümlələrindən və 22.2.3-cü maddədən “işsiz” sözü çıxarılsın.

3. 24-cü maddə üzrə:

3.1. 24.1-ci maddəyə “İşsiz” sözündən sonra “, habelə bu Qanunun 4.1.3-cü maddəsində nəzərdə tutulan mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub, digər məşğulluğu olmayan işaxtaran” sözləri əlavə edilsin;

3.2. 24.1.1-ci və 24.1.4-cü maddələrdən “işsiz şəxslərə” sözləri çıxarılsın;

3.3. 24.8-ci maddə ləğv edilsin;

3.4. 24.9-cu və 24.11-ci maddələrdə “İşsiz şəxslərin özünüməşğulluğunun” sözləri “Özünüməşğulluğunun” sözü ilə əvəz edilsin.

4. 29-cu maddə üzrə:

4.1. adından və 29.3-cü maddədən “işsiz” sözü çıxarılsın;

4.2. 29.1-ci maddədə “peşə hazırlığı aldığı dövrdə işsiz şəxsə” sözləri “bu Qanunun 20.2.1-ci və 20.2.2-ci maddələrinə uyğun olaraq peşə hazırlığına cəlb olunmuş şəxslərə həmin dövrdə” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2021-ci il*

## “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 24 dekabr tarixli 445-VIQD nömrəli Qanununun tətbiqi və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 24 dekabr tarixli 445-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1683; 2019, № 7, maddə 1217; 2020, № 5, maddə 561, № 9, maddə 1142; 2021, № 7, maddələr 722, 725) 2.1-ci və 2.5-ci bəndlərindən “24.8-ci,” sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 24 dekabr tarixli 445-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 yanvar 2022-ci il*

## “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004, № 11, maddə 1789, № 12, maddə 2033; 2017, № 6, maddə 1034, № 7, maddə 1305, № 11, maddə 1965; 2018, № 1, maddə 12, № 3, maddə 395, № 5, maddə 888, № 7 (I kitab), maddə 1442; 2019, № 1, maddə 22, № 7, maddələr 1196, 1206, № 12, maddə 1895; 2020, № 7, maddə 826) 93-4-cü maddəsinin ikinci hissəsi üçüncü hissə hesab olunsun və həmin maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Bu maddənin birinci hissəsində nəzərdə tutulmuş qaydada yüksək hakim vəzifələrinə təyin edilmiş hakimlərin hüquqşünas ixtisası üzrə dövlət orqanlarında (qurumlarında) iş stajı, habelə hüquq sahəsində elmi və pedaqoji fəaliyyət müddəti onların hakimlik stajına hesablanır.”.

**Maddə 2.** Bu Qanun 2021-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

“İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1514; 2018, № 12 (I kitab), maddə 2503; 2019, № 3, maddə 381, № 8, maddə 1382; 2020, № 5, maddə 521, № 9, maddə 1137, № 11, maddə 1322; 2021, № 3, maddə 212) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.0.6-cı maddədə “hal” sözü “bu Qanunun 13.1-ci maddəsində nəzərdə tutulan əmək münasibətlərinə xitam verilməsi halları” sözləri ilə əvəz edilsin.

2. 13-cü maddə üzrə:

2.1. 13.1.3-cü maddəyə “bəndinə” sözündən sonra “, 73-cü maddəsinin 1-ci və ya 2-ci hissəsinə” sözləri əlavə edilsin;

2.2. 13.2.1-ci və 13.2.2-ci maddələrdə “işsizliyin başlanmasından” sözləri “sığorta hadisəsinin baş verdiyi tarixdən” sözləri ilə əvəz edilsin;

2.3. 13.2.3-cü maddədə “işsizliyin başlanmasından” sözləri “sığorta hadisəsinin baş verdiyi tarixdən” sözləri ilə, “35” rəqəmləri “30” rəqəmləri ilə əvəz edilsin və həmin maddədən “işsiz kimi qeydiyyata alındığı tarixdən 3 ay sonra” sözləri çıxarılsın.

2.4. 13.8-ci maddədə “36” rəqəmləri “30” rəqəmləri ilə əvəz edilsin.

3. 14.2-ci maddədən “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş qaydada” sözləri çıxarılsın və həmin maddədə hər iki halda “işsiz kimi qeydiyyata alınmasından” sözləri “sığorta hadisəsinin baş verdiyi tarixdən” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2021-ci il*

## *Ukrayna Baş nazirinin müavini:*
## “Əldə olunan razılaşmalar Ukrayna ilə Azərbaycan arasında strateji tərəfdaşlığın yeni keyfiyyətini nümayiş etdirir”



“Azərbaycan Ukraynanın strateji tərəfdaşıdır və Ukraynanın xarici siyasətində mühüm yer tutur. Azərbaycan Prezidenti İlham Əliyevin Kiyevə səfəri iki ölkə arasında strateji tərəfdaşlığın və etibarlı dostluğun bariz nümunəsidir”.

Bu fikirləri AZƏRTAC-a eksklüziv müsahibəsində Ukrayna Baş nazirinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri İrina Vereşçuk deyib.

*- Azərbaycan Prezidenti İlham Əliyevin Ukraynaya işgüzar səfərinin yekunları barədə nə deyə bilərsiniz?*

- Ukraynanın Milli Təhlükəsizlik Strategiyasında Azərbaycan bizim strateji tərəfdaşımız kimi göstərilib. Ukrayna Prezidenti Volodimir Zelenski ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında danışıqlar nəinki strateji tərəfdaşlığı təsdiqlədi, həm də yeni perspektivlərə yol açdı. Ukrayna Prezidenti Volodimir Zelenski bu danışıqları ölkələr arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ərəfəsində əlamətdar hadisə adlandırıb.

Dövlət başçıları Ukrayna ilə Azərbaycan arasında strateji tərəfdaşlığın dərinləşdirilməsinə yönəlmiş Birgə Bəyannamə imzalayıblar. Bəyannamədə dövlətlərimizin suverenliyi və ərazi bütövlüyünə qarşılıqlı dəstək verməyə hazır olduqları təsbit edilib. O da çox vacibdir ki, dövlətlərimizin rəhbərləri enerji, hərbi-texniki, infrastruktur, nəqliyyat, aqrar-sənaye və digər sahələrdə aktivləşdirməyə dair əsaslı razılığa gəliblər. Bundan əlavə, imzalanmış Bəyannamə hibrid təhlükələrə qarşı mübarizədə əməkdaşlığın intensivləşdirilməsini nəzərdə tutur. Müdafiə sənayesi sahəsində əməkdaşlığın gücləndirilməsi perspektivini ayrıca qeyd etmək olar. Prezidentlərin görüşü həmçinin müxtəlif sektorlarda əməkdaşlığa dair altı ikitərəfli sənədin imzalanması ilə nəticələnib.

Əldə olunan razılaşmalar Ukrayna ilə Azərbaycan arasında strateji tərəfdaşlığın yeni keyfiyyətini nümayiş etdirir.

*- Sizcə, imzalanan sənədlər ikitərəfli ticarətin inkişafına hansı töhfələri verə bilər?*

- Qeyd etmək istəyirəm ki, 2021-ci ildə Ukrayna ilə Azərbaycan arasında ticarət dövriyyəsi son bir neçə ildə ilk dəfə olaraq təxminən 1 milyard ABŞ dollarına çatıb. Prezidentlər üç il ərzində ikitərəfli ticarətin həcmini iki dəfə artırmağı qarşıya məqsəd qoyublar. Ticarət, investisiya, ərzaq və enerji təhlükəsizliyinə aid olan imzalanmış sənədlər də məhz buna yönəlib.

*- Azərbaycan-Ukrayna Hökumətlərarası Dövlət Komissiyasının həmsədri kimi hansı sahələri perspektivli hesab edirsiniz? Komissiyanın növbəti iclası nə vaxta planlaşdırılır və əsas müzakirə mövzuları nə olacaq?*

- Biz genişmiqyaslı birgə layihələrə diqqət yetirməliyik. Bu, məsələn, Azərbaycan şirkətlərinin Ukraynada “Böyük Tikinti” proqramında, eləcə də Ukrayna şirkətlərinin Azərbaycanda həyata keçirilən infrastruktur layihələrində iştirakıdır. Söhbət həm də enerji layihələrindən və neft emalı sahəsində əməkdaşlıqdan gedir.

Ərzaq təhlükəsizliyi kontekstində söhbət qida sənayesində birgə innovasiya layihələrindən gedir. Ərzaq məhsullarının idxalı, ixracı, tranziti və təkrar ixracı prosedurlarının sadələşdirilməsi üzrə əməkdaşlıq haqqında hökumətlərarası saziş imzalanıb.

İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın planlarına gəlincə, onu deyim ki, Prezident Volodimir Zelenski və Prezident İlham Əliyev komissiyanın iclasının bu ilin birinci yarısında keçirilməsi ilə bağlı razılığa gəliblər.

*- Azərbaycan və Ukrayna arasında ticarətin genişləndirilməsində əsas problemlərdən biri logistikadır. Nəqliyyat sahəsinin asanlaşdırılması üçün dövlət komissiyası hansı layihələr üzərində işləyir?*

- Şübhəsiz ki, tranzit potensialının inkişafı, ölkələr arasında ticarətin genişləndirilməsi daha çox ölkələrin infrastrukturunun inkişafından asılıdır. Ona görə də müvafiq infrastrukturun yaradılması bizim prioritetlərimiz siyahısındadır. Prezident Volodimir Zelenski beynəlxalq avtomobil və dəmir yolu nəqliyyatı, eləcə də aviasiya sahəsində əməkdaşlığın intensivləşdirilməsi vəzifəsini qarşıya qoyub. Prezident Zelenski həmçinin vurğulayıb ki, biz bir sıra perspektivlər, xüsusən də Ukrayna, Azərbaycan, Gürcüstan və Moldovanın üzv olduğu GUAM çərçivəsində nəqliyyat dəhlizinin yaradılması üzrə birgə işi davam etdirəcəyik.

*- Azərbaycanın işğaldan azad olunan ərazilərinin bərpa və yenidənqurma işlərində Ukrayna hansı köməkliyi göstərməkdə maraqlıdır?*

- Mən Ukrayna ilə Azərbaycan arasında əməkdaşlıq üçün böyük potensial görürəm. Azərbaycanın geri qaytarılan ərazilərinin reinteqrasiyası ilə bağlı çoxlu işi var. Ukrayna artıq reinteqrasiya işində mühüm təcrübəyə malikdir və onu Azərbaycan tərəfi ilə bölüşə bilər. Bunlar müvəqqəti köçkünlərlə iş, minaların təmizlənməsi və sair. Təbii ki, Ukraynanın tikinti və digər şirkətləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulmasında iştirak etməyə hazırdır.

## İşğaldan azad olunan ərazilərdə qoşunların fasiləsiz hərəkəti təmin edilir

İşğaldan azad olunan ərazilərdə qoşunların fasiləsiz hərəkəti təmin olunur.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Kəlbəcər və Laçın rayonlarında dislokasiya olunan qoşunların döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanması, o cümlədən bölmələrin fasiləsiz təminatının həyata keçirilməsi məqsədilə Azərbaycan Ordusunun Mühəndis Qoşunları yolların daim işlək qalması, qar örtüyündən təmizlənməsi, dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqelərinə yeni təminat yollarının çəkilməsi istiqamətində fəaliyyətini davam etdirir.

## Bölük komandirləri ilə təlim toplanışları keçirilib

Təsdiq olunmuş döyüş hazırlığı planına əsasən, hərbi hissələrdə bölük komandirləri ilə komandir hazırlığı toplanışları keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, toplanış müddətində komandirlər yüksək texnologiyanın da tətbiqi ilə ümumqoşun hazırlığı üzrə keçirilən nəzəri və praktiki məşğələlərdə müxtəlif tapşırıqları yerinə yetiriblər.

Toplanışın keçirilməsində əsas məqsəd komandir heyətinin idarəetmə bacarıqlarının və praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

## Həlak olan hərbi qulluqçu Cavidan Məmmədli Şəkidə torpağa tapşırılıb

Azərbaycan Ordusunun həlak olan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu, 2000-ci il təvəllüdlü əsgər Məmmədli Cavidan Abdüləziz oğlu doğulduğu Şəki şəhərində torpağa tapşırılıb.





AZƏRTAC xəbər verir ki, dəfn mərasimində hərbçilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, Azərbaycan Ordusunun müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Məmmədli Cavidan Abdüləziz oğlu silahla davranış qaydalarının kobud şəkildə pozulması nəticəsində həlak olub. Faktla bağlı cinayət işi başlanılıb, araşdırma aparılır.

## “Omikron”a ay ərzində 3 dəfə də yoluxmaq olar

*Əvvəli 1-ci səh.*

Fransanın səhiyyə rəsmiləri artıq xəbərdarlıq ediblər ki, “Omikron” variantı “Delta”dan daha yoluxucu olduğundan növbəti həftələrdə xəstəxanaya yerləşdirilmələrin sayı artacaq. Türkiyənin Səhiyyə Nazirliyinin Koronavirus Elmi Komitəsinin üzvü professor Tofiq Özlü “Omikron” dalğasının yüksəlmə mövqeyində olduğunu, yaxın günlərdə bu yüksəlmənin daha da artacağını söyləyib: “Bəzi insanlar pandemiya bitmiş kimi davranırlar. Sanki hər şey öz axarına qayıdır, amma elə deyil. Ümid edirəm ki, bu, bizim son dalğamız olacaq, gözlədiyimiz budur”.

Rusiyanın ali dərəcəli həkimi, elmi-tibbi ekspert Aleksey Vodovozov Rusiyada yanvarın sonuna “Omikron” sunamisi olacağının gözlənildiyini açıqlayıb. Onun sözlərinə görə, ABŞ-da artıq gündəlik yoluxma sayı 1 milyonu ötüb. Rusiyada da yanvarın sonunda bundan geri qalmayan “sunami”nin olacağı proqnozlaşdırılır.

Alim gündəlik aparılan test sayının real yoluxma vəziyyətini göstərmədiyini də düşünür: “Yoluxma rəqəmləri aparılan testlərdən asılıdır. Gündəlik 10 min xəstə aşkar etmək o demək deyil ki, bütün Rusiyada cəmi 10 min xəstə var. Bu rəqəm test edib çatdırdıqlarımızdır. Biz yanvarın son həftəsində gündəlik 30-40 min yoluxma rəqəminin olacağını proqnozlaşdırırıq”.

### Yeni ştam körpə və uşaqlara təsir edir

ABŞ Qlobal Viroloji Şəbəkə Mərkəzinin direktoru Konstantin Çumakov bildirib ki, mutasiyaya çox uğrayan “SARS-CoV-2” virusunun əvvəlki varinatları uşaqlar üçün təhlükəsiz idi, daha çox gənc və ortayaşlı insanlar bu virusa yoluxurdular. İndi isə uşaqlar virusa daha çox yoluxaraq xəstəxanalara düşürlər.

Artıq bu günlərdə ABŞ-ın Alabama ştatında COVID-19-a görə uşaq xəstəxanalarına yerləşdirmə sayının rekord həddə çatdığı bəyan edilib. Ştatın səhiyyə rəsmilərinin ötən həftənin cümə axşamı açıqladığı məlumata görə, ümumi COVID-19-a yoluxma hadisəsinin 12,7 faizi yaşı 18-dən kiçik olanlardır. Xəstəxanaya yerləşdirilən uşaqlar arasında hətta süni tənəffüs aparatına qoşulanlar da var. Alabama ştatının səhiyyə rəsmiləri virusun uşaqlar arasında yayılması hallarını azaltmaq üçün onları ictimai toplantılardan çəkinməyə, maska taxmağa, eyni zamanda peyvənd olunmağa çağırır.

Türkiyənin Hacettepe Universiteti Tibb Fakültəsinin Uşaq yoluxucu xəstəlikləri kafedrasının müdiri professor Mehmet Ceyhan əlavə edib ki, ötən il məktəblər yenidən açılanda, məhdudiyyətlər götürüləndə ortaya çıxan yeni “Delta” variantının yayılması nəticəsində uşaqlar ən çox xəstələnən yaş qrupuna aid edildilər. Bu hal “Omikron”un yayılması nəticəsində daha da artdı: “Hazırda 0-5 yaşlılar “Omikron”a ən çox yoluxmuş, ondan ən çox zərərçəkən yaş qrupudur. Bu, əvvəllər heç vaxt öyrəşmədiyimiz bir haldır. Virusun uşaqlar üçün daha az yoluxucu olduğunu düşündüyümüzdən bütün dünya uşaq bağçalarını açıq saxlamağa çalışdı. Ancaq artıq bu istiqamət üzrə tədbirlər gücləndirilməlidir”.

### “Omikron”dan ölmə ehtimalı “Delta”dan 91 faiz azdır

ABŞ-ın Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzləri (CDC) “Omikron” variantının digər COVID-19 ştamlarından əhəmiyyətli dərəcədə az ağır olduğunu təsdiqləyib. CDC-nin məlumatına görə, “Omikron” variantının ölümə səbəb olma ehtimalı “Delta”dan 91 faiz, reanimasiya şöbəsinə düşmə ehtimalı isə 75 faiz azdır.

Türkiyənin Hacettepe Universiteti Tibb Fakültəsinin Uşaq yoluxucu xəstəlikləri kafedrasının müdiri, professor Mehmet Ceyhan isə deyib ki, “Omikron” əvvəlki variantlarla müqayisədə insanda daha az immunitet yaratdığından virusa yoluxan xəstə bəzən 2 həftə sonra ikinci dəfə “Omikron”a yoluxur. Ay ərzində hətta 3 dəfə “Omikron”a yoluxanlar da var.

Koronavirusun qızılca və suçiçəyi xəstəliyindən daha yoluxucu olmadığını qeyd edən Mehmet Ceyhan bildirib ki, “Omikron”un yoluxma əmsalı 4,5-5 olaraq hesablansa da, qızılca və suçiçəyinin yoluxma əmsalı 16-18-dir: “Bəs onda bu viruslar niyə böyük pandemiyaya səbəb olmurlar? Çünki bu viruslar yoluxanda insanda ömürlük immunitet yaradır. “Omikron”'un isə immuniteti azdır”.

Türkiyə Səhiyyə Nazirliyi Koronavirus Elmi Komitəsinin üzvü professor Tofiq Özlü əzələ, bel, sinə, boğaz, baş ağrılarının, zəifliyin bu xəstəliyin əsas simptomları olduğunu və bu əlamətlərin də 5-7 gün davam etdiyini açıqlayıb: “Təbii ki, bəziləri, xüsusilə yaşlılar, xroniki xəstəlikləri olanlar bunun öhdəsindən o qədər də asan gəlmirlər. Biz hələ də Türkiyədə demək olar ki, hər gün bir təyyarə dolu insanı itiririk”.

ÜST bu günlərdə COVID-19 xəstəliyinin müalicəsində dərman seçiminin artırılması məqsədilə iki yeni dərman da tövsiyə edib. Dərmanların biri ağır və ya kritik vəziyyətdə olan xəstələr, digəri isə xəstəxanaya yerləşdirmə riski yüksək olan xəstələrdə yüngül və ya orta dərəcəli COVID-19-un müalicəsi üçün tövsiyə edilir.

ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzləri (CDC) isə müəyyən növ maska və respiratorların insanları koronavirusdan digərlərinə nisbətən daha çox qoruya bildiyini bir daha xatırladıb. CDC-nin məlumatına görə, boş toxunmuş parçalar virusdan ən az qorunmanı təmin edir. Üzdə kip oturan birdəfəlik cərrahi maskalar, KN95 maskaları, eyni zamanda respiratorlar (N95-lər daxil olmaqla) ) ən yüksək səviyyədə qorunmanı təmin edir.

### Yenidən qapanmalar və açılmalar

COVID-19-a yoluxma vəziyyətinin dəyişdiyi bir zamanda ölkələrin bəziləri sərt tədbirlər görməkdə davam edir, bəziləri isə müəyyən qədər yumşalmalar tətbiq edirlər. Çin hökuməti Pekində açılacaq Qış Olimpiya Oyunları ərəfəsində məhdudlaşdırma tədbirlərini gücləndirir. Ötən həftə rekord sayda gündəlik yoluxma sayının müşahidə edildiyi Fransada 2020-ci ilin yazından bəri ən yüksək məktəb bağlanma sayı qeydə alınıb. Fransa Təhsil Nazirliyinin verdiyi açıqlamaya görə, tələbələr və müəllimlər arasında COVID-19 hallarının aşkarlanması ilə əlaqədar ötən həftənin cümə günü ən azı 14 380 məktəbdə dərslərin keçilməsi dayandırılıb. Ləğv edilən dərslərin sayı ölkədəki bütün dərslərin 2,73 faizini təşkil edir.

ABŞ-ın Nyu Cersi ştatındakı məktəblərin 25 faizindən çoxu COVID-19 səbəbindən bağlı olsa da, onların əksəriyyəti qapılarını yenidən şagirdlərinin üzünə açmağı planlaşdırır.

Hollandiya COVID-19-a yoluxma sayındakı yüksək saya baxmayaraq, bəzi karantin tədbirlərini yumşaldır. Hollandiyanın Baş naziri Mark Rutte bununla riskə getdiklərini də gizlətməyib.

***İlhamə İSABALAYEVA,***
***“Azərbaycan”***






# Azərbaycan-Ukrayna əməkdaşlığı iqtisadiyyatın müxtəlif sahələrini əhatə edir

Koronavirus pandemiyası hələ davam etsə də, dünyada iqtisadi proseslər dayanmır və ölkələr bir-biri ilə əməkdaşlıq əlaqələrini getdikcə genişləndirirlər. Azərbaycan-Ukrayna iqtisadi əməkdaşlığındakı canlanma, iki ölkə arasında ticarət dövriyyəsinin artması buna aydın misaldır.



Təsadüfi deyil ki, Prezident İlham Əliyevin bu il yanvarın 14-də Ukraynaya işgüzar səfəri zamanı keçirilən görüşlərdə və digər tədbirlərdə də həmin məsələlər diqqət mərkəzində olmuşdur. Dövlətimizin başçısı və Ukrayna Prezidenti Volodimir Zelenski Birgə Bəyannamə imzalamışlar. Səfər çərçivəsində imzalanan digər sənədlər də hər iki ölkənin iqtisadiyyatının müxtəlif sahələrini əhatə edir. Bunlar "Qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında" saziş, "İkitərəfli ticarətdə təcili əməkdaşlıq haqqında", "Aqrar sahədə əməkdaşlıq haqqında", "Energetika sahəsində əməkdaşlıq haqqında", "Torpaq münasibətləri, dövlət torpaqlarının idarə edilməsi və dövlət torpaq kadastrı sahəsində əməkdaşlıq haqqında" anlaşma memorandumlarıdır.

Prezident İlham Əliyev və Prezident Volodimir Zelenski sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatla çıxış etmişlər. Dövlətimizin başçısı öz bəyanatında demişdir: "Biz təmaslarımızı möhkəmləndiririk və müzakirələr əsnasında iki ölkə arasındakı gələcək inkişaf perspektivlərini həm müzakirə edirik, həm də ki, vacib qərarlar qəbul edirik. O cümlədən bu gün keçirdiyimiz çox geniş fikir mübadiləsi nəticəsində əminəm ki, yaxın gələcəkdə biz yeni, gözəl hadisələrin şahidi olacağıq... Müstəqillik dövründə Ukrayna və Azərbaycan hər zaman bir-birini dəstəkləmişlər, hər zaman bir-birinin müstəqilliyini, ərazi bütövlüyünü, suverenliyini dəstəkləmişlər və bu dəstək bu gün birgə imzaladığımız Birgə Bəyannamədə də öz əksini tapır".

Ukrayna Prezidenti Volodimir Zelenski bəyanatında Azərbaycanın dövlət başçısının bu səfərinin böyük rəmzi xarakter daşıdığını, xüsusi olduğunu qeyd etmişdir. Çünki səfər iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ərəfəsində baş tutmuşdur. Qeyd edək ki, Azərbaycan və Ukrayna arasında diplomatik münasibətlərin 30 illiyi bu il fevralın 6-da tamam olacaq.

Ukraynanın dövlət başçısı demişdir: "7 il ərzində ilk dəfə olaraq bütün ikitərəfli ticarətimizin dövriyyəsi təxminən artıq 1 milyard dollara çatıb. Bu, bizim qarşımızda daha mühüm məqsədlər qoymağa imkan yaradır. 2024-cü ilə qədər bizim ticarət dövriyyəmizin bundan sonra da artırılması ilə bağlı dəqiq planlarımız var. Biz həmçinin bir sıra birgə genişmiqyaslı layihələr əsasında sərmayələrin qoyulması, Azərbaycanda bərpa işlərinin aparılmasında iştirak etmək fikrindəyik. Mən infrastruktur layihələrini nəzərdə tuturam. Ukrayna şirkətləri Azərbaycanda həyata keçirilən layihələrdə iştirak edə bilərlər... Təbii ki, Azərbaycan şirkətləri də Ukraynada fəaliyyət göstərirlər".

Məlumdur ki, SOCAR-ın - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Ukraynada yanacaqdoldurma stansiyalarından ibarət geniş şəbəkəsi fəaliyyət göstərir. Ənənəvi əməkdaşlıq sahəsi olan energetika sektorunda yeni planlar da var. Belə ki, SOCAR orada fəaliyyətini daha da genişləndirmək istəyir. Ukrayna tərəfi də bunu dəstəkləyir. Çünki neft və neft məhsullarının ixracı və emalında yeni addımların atılması iki ölkə arasında əməkdaşlığı daha da möhkəmləndirəcək.

Keçən il ölkələrimiz arasında ticarət dövriyyəsi 20 faizdən çox artıb. Sözügedən səfər çərçivəsində imzalanan sənədlər və müzakirə olunan məsələlər eyni zamanda idxal-ixracın artmasına xidmət edəcək. Bir sözlə, imzalanan 6 sənəd müxtəlif sahələri əhatə etsə də, ümumilikdə, Azərbaycan-Ukrayna dostluq və əməkdaşlığının dərinləşməsinə təkan verəcək. Prezident İlham Əliyev bu barədə demişdir: "Hesab edirəm ki, ərzaq təhlükəsizliyi ilə bağlı bu gün əldə edilmiş razılaşmalar Azərbaycana imkan verəcək ki, öz ərzaq təhlükəsizliyini daha geniş həcmdə təmin etsin. Eyni zamanda birgə müəssisələrin yaradılması, kənd təsərrüfatı məhsullarının emalı və ixracı ilə bağlı birgə fəaliyyət üçün bu gün zəmin yaradılmışdır. Bu, bir yenilikdir, bizim əlaqələrimizdə bu sahə ilə bağlı hesab edirəm ki, atılan ən mühüm addımlardan biridir. Bütün başqa sahələrdə də biz əməkdaşlığa açığıq".

Səfər çərçivəsində keçirilən tədbirlərdə həm Azərbaycan-Ukrayna hökumətlərarası birgə iqtisadi komissiyasının, həm də aidiyyəti qurumların rəhbərlərinə konkret fəaliyyət proqramının işlənməsi ilə bağlı müvafiq güzəştlər verilib. Bu ilin birinci yarısında sözügedən komissiyanın növbəti iclasının keçirilməsi haqqında razılıq əldə olunub. Azərbaycan Prezidenti bəyanatında onu da bildirib ki, birgə komissiyanın Bakıda keçiriləcək növbəti iclasında artıq konkret qərarların verilməsinin də şahidi olacağıq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Xalq-Prezident birliyinin yeni nümunəsi

**Prezident İlham Əliyevin unikal keyfiyyətlərindən biri də qətiyyətli lider kimi yorulmadan islahatlara istiqamətlənməsidir. O, iqtisadiyyatda, daxili və xarici siyasətdə, dövlət quruculuğunun bütün istiqamətlərində tükənməyən yeniliklərə köklənməyi bacaran nadir dövlət başçılarındandır.**



Bu baxımdan Azərbaycan Prezidentinin bu il yanvarın 12-də yerli telekanallara verdiyi müsahibə həm də dövlətlə mətbuat arasındakı münasibətlərdə tətbiq olunan yenilik kimi qiymətləndirilə bilər.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasının tarixi 30 illik qısa bir zaman kəsiyini əhatə etsə də, biz əsrlərlə ölçülən sonsuz yeniliklərin, ardıcıl aparılan islahatların və davamlı inkişafın şahidiyik. Bütün bunlar təbii ki, Azərbaycan Prezidentinin ardıcıl olaraq islahatlara və sosial rifahın yüksəlməsinə göstərdiyi səylərin nəticəsidir.

İdeoloji müstəvidə sonuncu müsahibəni nəzərdən keçirəndə görürük ki, bu tədbir artıq bütün dünya liderlərinin keçirdikləri illik mətbuat konfranslarının təkrarı deyil. Birinci diqqətçəkən odur ki, tədbirə dəvət alan televiziya kanallarının sayı çoxdur və onlar müxtəlif təmayüllüdür. Biz əsasən ona alışmışdıq ki, belə geniş müsahibə adətən bir kanala verilir və orada jurnalistin müsahiblə dialoquna yer qalmır. Bu baxımdan beş yerli televiziya kanalının iştirakı ilə keçirilən müsahibə daha sanballı və daha canlı təsir bağışlayır.

Tədbirin belə dialoq formatında keçirilməsi həmçinin dövlətin birinci şəxsinə gündəmi maraqlandıran daha çox sualların verilməsinə, cavabların daha maraqlı, daha əhatəli olmasına səbəb olur. Bu baxımdan təsadüfi deyil ki, 3 saata yaxın davam edən müsahibədə ölkə əhalisini və beynəlxalq ictimaiyyəti maraqlandıran, rahatsız edən əksər məsələlər qaldırılmış və onlara ətraflı cavablar verilmişdir.

Onu da qeyd edək ki, dünyada dövlət başçılarının mətbuatla görüşləri qəbul edilmiş prosedur qaydalarından biridir. Nadir halda istisna ola bilər ki, hər hansı bir lider belə tədbirdən imtina etsin. Birinci şəxslərin mətbuat konfranslarının keçirilməsi üçün vahid qaydalar mövcud deyil və hər bir liderin komandası bu tədbirləri bir-birindən o qədər də fərqlənməyən üslubda təşkil edir. Məsələn, Amerika Birləşmiş Ştatlarında mətbuat nümayəndələri ilə ildə bir dəfə keçirilən görüşlər ziyafət kimi təşkil olunur. Klinton, kiçik Buş, Obama belə məclisləri aprel ayında keçirirdilər. Amma Tramp ilk dəfə bu ənənəni gözlənilmədən və səbəbini izah etmədən pozaraq mətbuat təmsilçiləri ilə şam yeməyindən imtina etdi. Bu, əslində, başa düşülən idi. Çılğın hisslərini cilovlamaqda özünə əziyyət verməyən Tramp hakimiyyətə gəldiyi gündən məğlub edildiyi son anadək ABŞ mətbuatı ilə yola gedə bilmədi.

Almaniyada federal kansler hər yay 200 nəfərə yaxın jurnalistin iştirakı ilə mətbuat konfransı keçirir və bu görüş adətən 80-100 dəqiqə arasında olur. Belarus Prezidenti Lukaşenko ilin əvvəlində və sonunda böyük mətbuat konfransları keçirir. Dəvət alan mətbuat təmsilçilərinin əvvəlki illərdə sayı 400-ə çatırdısa, 2014-cü ildən onların sayı 50-yə endirildi.

Fransada illik mətbuat konfransları hər il iyulun 14-də - Bastiliyanın alındığı gün təşkil olunur. Amma Emmanuel Makron da bir neçə il əvvəl, ümumiyyətlə, ənənəvi illik mətbuat konfranslarından imtina etmişdir. Seçicilərdən alqış əvəzinə şapalaq qazanan Makron belə bir məzəli izahat verdi ki, "onun mürəkkəb düşüncə tərzi jurnalist sorğularının formatı ilə uzlaşmır".

Beləliklə, aydın görünəni odur ki, dünyada dövlət və hökumət başçılarının mətbuat konfransları ilə bağlı vahid, hamı tərəfindən qəbul edilmiş format yoxdur. Bu tədbirlər bənzər olduqları qədər də fərqlidirlər.

Azərbaycan müstəqilliyini bərpa etmiş gənc dövlət olmasına baxmayaraq, belə tədbirlərin keçirilməsində bir çox ölkələrdən daha zəngin təcrübəyə malikdir. Xüsusən 44 günlük Vətən savaşı zamanı dövlətimizin başçısının xarici mətbuat nümayəndələrinə verdiyi müsahibələr bu zənginliyin ən ideal təsdiqidir. Bir də biz onun şahidiyik ki, Azərbaycan Prezidenti sıravi insanlar üçün hamıdan yaxın və açıq olan dövlət başçılarındandır. Çünki İlham Əliyev cəmiyyətlə əlaqələrin inkişafına xüsusi önəm verir. O, bölgələrə səfərlərində də vaxt taparaq insanlarla görüşür, onların dərd-səri ilə maraqlanır, eyni zamanda xalqa gələcək perspektivləri izah edir. Ən əsası isə qətiyyətli lider kimi hamını öz ətrafında birləşdirməyi və bütün qüvvələri səfərbərliyə almağı bacardığını ortaya qoyur.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# 20 Yanvar faciəsi tariximizin qəhrəmanlıq səhifəsidir

20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın hadisəsi törədildi. Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola bilmədi, milli qürurumuzu qıra bilmədi.

Otuz iki il əvvəl Azərbaycan xalqına qarşı törədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli terror aktıdır. Bu faciədə 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 638 nəfər yaralanmış və xəsarət almış, 841 nəfər qanunsuz olaraq həbs edilmiş, nəticədə insan hüquqlarına dair bir çox beynəlxalq sənədlərin, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin tələbləri kobudcasına pozulmuşdur. Öldürülənlər arasında 5 millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi. Bu hadisələr həmçinin beynəlxalq humanitar hüququn ciddi və kobud şəkildə pozuntusunu təşkil etməklə, birbaşa 1949-cu il Cenevrə konvensiyasiyalarına ziddir. Çünki faciə zamanı qoşun hissələri və birləşmələrinin tanklardan, piyadaların hərbi maşınlarından və zirehli transportyorlardan, həmçinin partlayan gülləsi və ağırlıq mərkəzinin yeri dəyişdirilmiş kütləsi olan odlu avtomat silahlardan istifadə edilməsi beynəlxalq humanitar hüququn norma və sazişlərinin açıq-açığına pozulması deməkdir. Bundan əlavə, yaralılara xidmət etmək üçün təcili yardım maşınlarının gülləbaran edilməsi, habelə bu qanlı cinayətin əsl miqyasının dünya ictimaiyyətindən gizlədilməsi məqsədilə xarici ölkələrin respublikaya lazımi tibbi yardım etmək üçün göstərdikləri bütün cəhdlərin qarşısının qətiyyətlə alınması 1949-cu il Cenevrə konvensiyaları və onlara 1977-ci il Əlavə protokollarında nəzərdə tutulan müharibə aparılması qaydaları ilə, habelə digər sazişlərlə tam ziddiyyət təşkil edir.

Azərbaycan xalqının ən ağır günlərində dünya şöhrətli siyasi xadim Heydər Əliyev həyatını gözləyən təhlükəyə baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında bu vəhşiliyi pisləyir və bunu insanlığa, hüquqa, demokratiyaya zidd aksiya adlandırır.

Vətən yolunda şəhidlik əsl qeyrət, hünər, şərəf və ləyaqət zirvəsidir. Ulu Öndər Heydər Əliyev 1990-cı ilin 20 Yanvar gecəsi məhz belə bir zirvəni fəth edib əbədiyaşarlıq hüququ qazanan Vətən oğullarının fədakarlığını yüksək qiymətləndirərək demişdir: "20 Yanvar şəhidlərinin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnəkdir. Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmalığından nümunə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün, müstəqilliyini qorumaq üçün daim mübarizə aparacaqlar. Daim qəhrəmanlıq nümunələri, vətənpərvərlik nümunələri göstərəcəklər. Ona görə də bu şəhidlərin həlak olması bizim üçün nə qədər qəm-qüssə doğurursa, nə qədər ağır itkidirsə, o qədər də xalqımız üçün qəhrəmanlıq nümunəsi kimi, örnək kimi bizim milli sərvətimizdir, milli iftixarımızdır".

Milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar faciəsi xalqımızın öz suverenliyi uğrunda apardığı mübarizənin şərəfli tarixidir. Xalqımız Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman övladların xatirəsini qəlbində əbədi yaşadacaq.

***Aybəniz KƏLƏŞOVA,***
***Zaqatala rayon qeydiyyat şöbəsinin rəisi***

# Zəngəzur dəhlizinin açılması qarşısıalınmaz prosesdir



## Erməni xalqı çıxış yolunu Azərbaycanla əməkdaşlıqda görür

**Vətən müharibəsindən sonra Azərbaycanın regionda yaratdığı yeni reallıqlar, sülh və əməkdaşlıq üçün irəli sürdüyü təkliflər artıq dünya dövlətləri, beynəlxalq ictimaiyyət tərəfindən də təqdir edilir. Elə bunun nəticəsidir ki, Zəngəzur dəhlizinin açılması, sərhədlərin müəyyən edilməsinə dair Azərbaycanın təkliflərinə çoxsaylı ölkələr, o cümlədən Cənubi Qafqazda nüfuz sahibi olan dövlətlər tərəfindən tam dəstək ifadə olunur. Elə erməni xalqı da çıxış yolunu Azərbaycanla əməkdaşlıqda görür.**

### "Ermənistan son 30 ildə özünə qəsd edib"

Sülh müqaviləsinin imzalanması ilə əməkdaşlıq üçün yaranacaq yeni zəmin fonunda Ermənistan çoxdan arzusunda olduğu bir sıra vacib layihələri reallaşdıra bilər. Buna konkret nümunə kimi Ermənistanın Rusiya və İranla dəmir yolu ilə bağlantısı yarada bilmək imkanlarını göstərmək olar.

2021-ci ildə Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin üçətərəfli Soçi görüşü İrəvanda böyük reaksiyaya səbəb oldu. Erməni mediasının, sosial şəbəkə istifadəçilərinin statusları, şərhləri və mövqelərindən görünür ki, onlar ölkələrinin xilas formulunu Azərbaycanla münasibətləri normallaşdırmaqda, sülh müqaviləsinin imzalanmasında görürlər.

"4rd.am" saytı da yazır ki, dövlət başçılarının son Soçi görüşündə aparılan danışıqlar fonunda bir daha nümayiş olundu ki, kommunikasiyaların bərpa olunması Ermənistan üçün böyük şansdır: "Daha dəqiq desək, bu səfər İlham Əliyevin yeni qələbəsi, erməni xalqının dirçəliş günüdür. Zəngəzur dəhlizinin açılması Ermənistana qarşıdakı illərdə böyük iqtisadi dividentlər qazandıracaq. Görüşdə şahidi olduq ki, Moskva Bakı ilə geosiyasi, iqtisadi, mədəni və təhlükəsizlik aspektlərində münasibətlərini dinamik şəkildə inkişaf etdirir. Son 10 ilə nəzər yetirdikdə görürük ki, baş verən proseslər regionda Azərbaycanın mövqelərini daha güclü hala gətirdiyi halda, Ermənistanla münasibətdə tamam əks vəziyyət müşahidə olunur. Aydındır ki, bu, Sarkisyan-Koçaryan koalisiyasının xarici siyasətinin iflasıdır. Hər halda dövlət başçılarının son görüşü, qəbul edilən qərarlar Ermənistanın xilası olacaq".

Erməni ekspert Qriqori Vahenyan qeyd edir ki, Zəngəzur dəhlizinin açılması Ermənistanın sanki dünyaya yenidən gəlməsi olacaq. Onun fikrincə, müharibədəki məğlubiyyət fonunda sülh müqaviləsi imzalanmasa, Ermənistanın regional geosiyasi proseslərdən izolyasiya edilməsi daha kəskin xarakter alacaq. Vahenyan diqqəti buna da yönəldir ki, bütün bu proseslər Ermənistanın sosial-iqtisadi cəhətdən daha böyük problemlər yaşaması fonunda baş verir. O vurğulayır ki, Ermənistan iqtisadiyyatı artıq tamamilə iflasa uğramaq üzrədir. Ölkənin dövlət statistika komitəsi də böyük iqtisadi geriləmələr yaşandığını etiraf edir: "Rəsmi açıqlamalara görə, Ermənistanda iqtisadi fəallıq daha sürətlə azalır, ölkə sənayesində ciddi geriləmə qeydə alınır. Həmçinin pərakəndə əmtəə dövriyyəsində də kəskin azalma müşahidə olunur. Ölkədə son illər ərzində enerji tariflərinin kəskin yüksəlməsi və əhalinin həyat səviyyəsinin pisləşməsi vətəndaşların sosial narazılığını da artırır. Regionlar, qlobal layihələrdən kənarda qalmağımız da prosesə birbaşa təsir edir. Ermənistan qlobal kommunikasiya layihələrindən kənarda qalmaqla son 30 ildə özünə qəsd edib. Ölkəmiz coğrafi baxımdan qlobal kommunikasiyaların tərkib hissəsi ola bildiyi halda, bu şansı itirmişdi. Zəngəzur dəhlizinin açılmasından sonra Ermənistan qazanan tərəf olacaq".

### "İlham Əliyevlə razılaşmaqdan başqa çarəmiz yoxdur"

"Feysbuk" sosial şəbəkə istifadəçisi, ixtisasca iqtisadçı olduğunu qeyd edən Manvel Levonyan yazır ki, Zəngəzur dəhlizinin açılması bütün tərəflərin milli maraqlarına tam cavab verir: "İllərdir dediyimiz gerçəkləşir. Nəhayət, yolumuz açılır, işıqlı günlərə çıxa bilərik. Qarabağ problemi Ermənistanı 30 ildən çox bütün layihələrdən təcrid etdi. 30 ildə itirdiklərimizin hesabatını kim verəcək? Sarkisyan, Koçaryan, çıxın xalqa hesabat verin! Görəcəksiniz, Zəngəzur dəhlizi Ermənistanın xilası olacaq. Ermənistan bu dəhlizin açılması üçün üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir. Əgər bu, baş verməsə, Azərbaycan yenə güc tətbiq etmək məcburiyyətində qalacaq. Bu da bizim üçün məqbul deyil və xalq buna qarşıdır".

"Odnoklassniki" sosial şəbəkəsində Soçidəki görüşlə bağlı paylaşılan xəbərə münasibət bildirən, profil səhifəsində bank sektorunda çalışdığı yazılan Henrix Qriqoryan adlı istifadəçi isə qeyd edir ki, baş nazir Nikol Paşinyan müharibədən sonra çox düzgün addımlar atır: "Müharibədən sonra yaranan iqtisadi böhran Ermənistanda insanları acınacaqlı vəziyyətlə üz-üzə qoyub. Evlərini satanlar, hətta intihar edənlər də olub. Paşinyan, bir vətənini sevən erməni kimi sizə müraciət edirəm ki, kommunikasiyaların bərpasını uzatmayın. Xalqın taleyini əvvəlki hökumət maraqlandırmadı. İlham Əliyevlə razılaşmaqdan başqa çarəmiz yoxdu".

### "Qarabağ müharibəsindəki kabusu yenidən yaşamaq istəmirik"

Loris Tevosyan adlı birinin "Tviter" sosial şəbəkəsindəki paylaşımı da diqqəti cəlb edir: "Zəngəzur dəhlizinin açılması, Azərbaycanla sülh müqaviləsinin imzalanması ermənilərin xilası olacaq. Parlaq günlər qarşıdadır. Səhvə yol vermək olmaz. Əgər Azərbaycanın istəkləri təmin olunmasa, həyata keçirilən təcrid siyasəti davam etdiriləcək. Özü də bu məsələdə Azərbaycana dəstək verənlərin sayının artması Ermənistan üçün yaxşı heç nə vəd etmir".

Aşot Simonyan adlı "İnstaqram" istifadəçisi İlham Əliyevin Zəngəzurla bağlı fikirlərinin yer aldığı paylaşıma belə şərh vermişdi: "İllər öncə Əliyev "erməni əsgəri ölmək istəmirsə, Qarabağda nə işi var" sözünə 44 günlük müharibədə əməl etdi. Bu gün Zəngəzur dəhlizi ilə bağlı çıxışını izlədim, dəhşətə gəldim. Övladlarıma, mənə müharibə lazım deyil. Boş yerə gənclərimiz həlak olmasınlar. Paşinyan xalqını, dövlətini yeni müharibəyə, ölüm-itimli günlərə sürükləməsin. Qarabağ müharibəsindəki kabusu yenidən yaşamaq istəmirik".

### "30 il kor olmuşuq, gözümüz indi açılır"

Erməni politoloq Manvel Arminyan da pessimistdir. O qeyd edir ki, Azərbaycan istəyinə hər zaman nail olmaq gücündədir: "Azərbaycanlılar öz proqramlarını minimum həyata keçirdilər. Yəni Qarabağı azad etdilər. İndi isə onların qarşısında maksimum proqramı həyata keçirmək durur". O bildirib ki, indi Azərbaycanın qarşısında dayanan maksimum məsələ Zəngəzuru, Basarkeçəri, İrəvanı, Qarakilsəni və digər əraziləri azad etməkdir: "Hazırda Azərbaycanda növbəti nəsli buna hazırlayırlar. Çünki bilirlər ki, xoşluqla heç kim bu əraziləri onlara qaytarmayacaq. Əgər onlar Qarabağı azad ediblərsə, onda niyə sadaladığım torpaqları da geri qaytarmasınlar".

Armen Minosyan adlı istifadəçinin "VKontakte" sosial şəbəkəsində İlham Əliyevin şəklini paylaşaraq "Zəngəzur dəhlizini açmaqla Ermənistanı işıqlı günə çıxaran şəxsiyyət" yazması maraqlı rəylərlə qarşılanıb. Vazgen Papinyan adlı istifadəçinin bu fotoya şərhi çoxlu bəyənmə toplayıb: "İndi başa düşürük ki, illərimizi boşa vermişik. Sarkisyan-Koçaryan hakimiyyətdə olduqları müddət ərzində biz erməniləri dərin uçuruma yuvarladılar. Yalançı vədlər, Qarabağ müharibəsinin yaratdığı problemlər bizi çox geri salıb. 30 il kor olmuşuq, gözümüz indi açılır, reallıqları görürük".

Erməni ekspert Henrix Qalosyan bildirir ki, kommunikasiyaların açılması, sərhədlərin müəyyən edilməsi ölkəsinin düşdüyü blokada vəziyyətindən xilası olacaq: "Zəngəzur dəhlizi bütün tərəflərin milli maraqlarına tam cavab verir. Ermənistan hakimiyyəti bu məsələni uzatmaqla məhvini qaçılmaz edir. Zəngəzur dəhlizi Ermənistanın xilası olacaq. Üçtərəfli Bəyanatın 9-cu bəndində göstərilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Bəyanatın bu bəndi Zəngəzur dəhlizinin reallaşması istiqamətində hüquqi zəmin yaradır. Yəni Ermənistan bu dəhlizin açılması üçün üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir. Əgər bu, baş verməsə, Azərbaycan yenə güc tətbiq etmək məcburiyyətində qalacaq".

Son aylarda İrəvanda belə etiraflara daha çox rast gəlmək mümkündür. İndi anlamağa başlayıblar ki, Ermənistanın acınacaqlı vəziyyətə düşməsinin əsas səbəbləri 30 ilə yaxın davam edən işğalçılıq siyasəti və buna görə Azərbaycanın gördüyü tədbirlər idi.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR



# Zəfər davam edir

## Goranboylular ötənilki uğurlarını belə dəyərləndirirlər

**Ölkədə həyata keçirilən irimiqyaslı islahatlar, iqtisadiyyata cəlb olunan investisiyaların həcminin ildən-ilə artması Goranboyun da sürətli inkişafını təmin etmişdir. Hər il reallaşdırılan infrastruktur layihələri rayonun potensial imkanları ilə yanaşı, əhalinin həyat səviyyəsinin yüksəlməsinə də müsbət təsir göstərmişdir.**











"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlər Goranboyda uğurla həyata keçirilir. Proqramın icrası çərçivəsində meyvə şirələri konsentratı istehsal zavodunun, xalça fabrikinin tikintisi başa çatmış, kənd təsərrüfatı məhsulları istehsalı və emalı sahəsinin inkişafı üçün 5 hektarda istixana yaradılmış, 246,5 hektar ərazidə yaradılmış taxılçılıq və pambıqçılıq üzrə mövcud aqroparkın ərazisi genişləndirilərək 4700 hektara çatdırılmış, ərazidə 85 hektar meyvə bağı salınmış, əlavə olaraq 2002 hektarda pivot suvarma sistemləri quraşdırılaraq istifadəyə verilmişdir. Qısa müddətdə rayonda su qıtlığının aradan qaldırılması məqsədilə Qarabağ kanalı üzərində nasos stansiyası tikilmiş, su kəməri çəkilmiş, 100 min kubmetr su tutumu olan anbar inşa edilmiş, Goran-Cotton ASC-nin nəzdində mahlıc və çiyid istehsalı müəssisəsi yaradılmışdır. Kənd təsərrüfatı məhsulları istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazasının möhkəmləndirilməsi çərçivəsində 2000 tonluq soyuducu anbar, region aqroparkının ərazisində tutumu 18000 ton olan taxıl terminalı və qablaşdırma müəssisəsi istifadəyə verilmişdir.

Bunlardan əlavə, yerli əhəmiyyətli, eləcə də kəndlərin giriş və kəndarası avtomobil yollarının tikintisi, yenidən qurulması və əsaslı təmiri üzrə işlər davam etdirilmişdir. Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu-Xanqərvənd-Əlirzalı avtomobil yolunun yenidən qurulması işləri artıq başa çatmışdır, Rəhimli-Səfikürd-Naftalan, həmçinin Yeni yol-Aşağı Ballıqaya-Nərimanlı-Zeynallı yolunda da təmir işlərinə başlanılmışdır.

Məlum olduğu kimi, Goranboy rayonunun su təminatında bir çox problemlər var. Odur ki, dövlət başçısının müvafiq sərəncamları ilə həmin problemin həlli üçün hər il bu istiqamətdə bir çox tədbirlər həyata keçirilir. Əkin sahələrinin su təminatının ödənilməsi üçün təkcə son bir neçə ildə 60-dan artıq subartezian quyusu qazılmışdır. Bundan başqa, Aqroparkın suvarma suyu ilə təmin edilməsi üçün Kürəkçayda nasos stansiyası quraşdırılmış və su anbarına yeni kəmər çəkilmişdir.

Təhsil müəssisələrinin yenilənməsi istiqamətində də çoxsaylı tədbirlər həyata keçirilmişdir. Hazırda Goranboy şəhər 1 nömrəli, Dəliməmmədli şəhər və Səfikürd kənd tam orta məktəbləri üçün yeni binaların tikintisində son tamamlama işləri görülür. İnteqrasiya təlimli internat tipli gimnaziyada, Qızılhacılı qəsəbə 1 nömrəli, Xanqərvənd, Balakürd, Borsunlu, Goranboy şəhər 2 nömrəli məktəblərin əsaslı təmirinə isə yaxın günlərdə başlanacaq.

Rayonda aqrar sektorun inkişafı əsas gəlirli sahə kimi daim diqqət mərkəzində saxlanılır. Son məlumata əsasən, rayonda 46166,2 hektar əkin sahəsi var. Həmin sahələrdə hər il taxıl, tərəvəz və bostan, eləcə də kartof, dən üçün qarğıdalı, üzüm, pambıq, şəkər çuğunduru, tütün, günəbaxan və lavanda kimi bitkilər yetişdirilir.

Ölkəmizdə baramaçılığın inkişafına verilən dəstəkdən yararlanan goranboylular hər il bu sahədə yüksək nəticələr əldə edirlər. Cəmi 40 gün ərzində çəkdikləri əziyyətin bəhrəsini görən kümçülərin hansını dindirsən baramaçılığın iqtisadi cəhətdən daha gəlirli olduğunu söyləyər. Odur ki, rayonda baramaçılıqla məşğul olanların sayı durmadan artır. Əvvəllər rayon üzrə cəmi 50-60 qutu baramaqurdu götürülürdüsə, indi onların sayı 150-yə çatıb.

Rayonun kənd təsərrüfatında qazanılan uğurlarda heyvandarların da böyük əməyi var. Onlar keçən il diri çəkidə 3656,8 ton ət, 32403,9 ton süd, 19,9 milyon ədəd yumurta istehsal edərək əvvəlki ilin göstəricilərini üstələmişlər. Belə ki, ət istehsalı 0,4, süd istehsalı 1,9, yumurta istehsalı isə 0,5 faiz artmışdır.

İqtisadi əhəmiyyətinə görə Azərbaycanda ikinci texniki bitki sayılan tütünçülük də Goranboyda sürətlə inkişaf edir. Tütünçülük üçün əlverişli mühitə malik rayonda hər il əkin sahələri genişləndirilir. Goranboyda tütünçülüklə, əsasən, Zeyvə, Yenikənd, Şəfəq, Qarbucaq, Todan və Qaraçanaq kəndlərinin sakinləri məşğul olurlar. 2016-cı ildə ilk dəfə rayon üzrə 6 hektar sahədə tütün əkən fermerlər hektardan 32,5 sentner məhsul götürmüşlər. Ötən il əkin sahələrini 8 hektara çatdıran fermerlər plantasiyalardan bol məhsul götürmüşlər. Rayon üzrə hər hektardan 1,5 ton olmaqla, ümumilikdə 14,7 ton quru tütün təhvil verilmişdir.

Rayonda sənaye sahəsində də uğurların sayı ildən-ilə artır. Keçən il sənaye müəssisələrində 79,9 faiz çox, yəni 20 milyon 822,3 min manatlıq sənaye məhsulları istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Əvvəlki illə müqayisədə istehsal edilmiş sənaye məhsullarının və göstərilmiş sənaye xarakterli xidmətlərin həcmi dövlət sektorunda 22,8 faiz, qeyri-dövlət sektorunda isə 2,5 dəfə artmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Şəhid atası Vətən müharibəsi şəhidlərinin xatirəsinə park və abidə kompleksi yaradıb

**Hacıqabulun Udulu kəndində şəhid atası şəhidlərin xatirəsinə park salıb, abidə kompleksi inşa etdirib. Ərazidə həmişəyaşıl ağaclar və dekorativ gül kolları da əkilib. Park və abidə kompleksində Vətən müharibəsi şəhidlərinin şəkilləri yer alacaq.**



AZƏRTAC xəbər verir ki, parkın girişində Azərbaycan və Türkiyə bayraqları dalğalanır. Burada zirvə simvolu olan qartal heykəli də ucaldılıb, şəhidlərin xatirəsinə bulaq inşa edilib. Parkın ərazisində ibadət otağı da yaradılıb.

Şəhid atası Şöhrət Qasımov deyib ki, parkda bütün şəhidlərin şəkilləri yer alacaq. Mindən çox ağac əkilib. Daha 2 mini də əkiləcək.

Şöhrət Qasımovun övladı Həsən Udulu kənd ərazi birliyinin Vətən müharibəsində şəhid olan 6 qəhrəmanından biridir.

Şəhidin həyat yoldaşı Aytəkin Qasımova bildirib ki, həqiqi hərbi xidməti Aprel döyüşlərinə təsadüf edən Həsən elə o vaxt da şücaəti ilə seçilib. Xidmətini layiqincə yerinə yetirdikdən sonra mülki mühafizədə çalışıb. "Onun Vətənə böyük sevgisi var idi. Vətən müharibəsində də tərəddüd etmədən döyüşlərə yollandı. Son damla qanına qədər qəhrəmancasına döyüşərək 6 döyüşçü yoldaşı ilə birlikdə şəhidlik zirvəsinə ucaldı", - deyə şəhidin həyat yoldaşı qeyd edib.

Həsən döyüşlərdə göstərdiyi şücaətə görə, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

# "Meyvəçi usta" proqramı üzrə peşə hazırlığı kursları keçiriləcək

**Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu və Dövlət Məşğulluq Agentliyinin tabeliyində olan Göyçay Peşə Hazırlığı Mərkəzi arasında imzalanan əməkdaşlıq müqaviləsinə əsasən, görüləcək işlər müzakirə olunub.**



Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədr müavini Cəmaləddin Quliyev, Peşə hazırlığı və peşəyönümü departamentinin müdiri Fuad Mehdizadə və Göyçay Peşə Hazırlığı Mərkəzinin direktoru Əzizağa Atakişiyev Qubada yerləşən Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutuna səfər ediblər.

İlkin mərhələdə aqrar sahədə ixtisaslı kadrların hazırlanması məqsədilə birgə "Meyvəçi usta" proqramı üzrə peşə hazırlığı kurslarının başlanması üçün təlim vəsaitlərinin çap olunmasına və institutun Göyçayda yerləşən Dayaq Məntəqəsində kiçik nümayiş bağlarının yaradılmasına dair razılığa gəlinib.

Əməkdaşlıq çərçivəsində Göyçay Peşə Hazırlığı Mərkəzinin müdavimləri institutun bir sıra layihələrinin icrasına qoşulacaq, işlə təmin olunacaqlar.

Qonaqlar biotexnologiya laboratoriyasına, istixana kompleksinə, təcrübə sahəsində yerləşən "ağıllı bağ"a və tinglik sahələrinə baxış keçiriblər.

# SDU-da "Açıq qapı" günü təşkil edilmişdir

Sumqayıt Dövlət Universitetinin rektorluğu yanında İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri, valideynlər və KİV nümayəndələrinin iştirakı ilə tədris ilinin payız semestrinin imtahan sessiyasına dair "Açıq qapı" günü keçirilib.

Əvvəlcə nümayəndə heyəti şəhidlik zirvəsinə ucalan tələbə-məzunların universitetin həyətində ucaldılan xatirə abidəsini ziyarət edib və önünə gül dəstələri düzüblər. Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Nümayəndə heyəti ilə görüşən universitetin Humanitar məsələlər üzrə prorektoru dosent Ramiz Hüseynov payız imtahan sessiyasının təşkili və gedişatı, imtahan prosesində obyektivliyin, şəffaflığın təmin olunması ilə bağlı aparılan məqsədyönlü tədbirlər və imtahanın qaydaları haqqında geniş məlumat verib. R.Hüseynov bildirib ki, imtahanlar əyani formada keçirilir. İmtahanlar Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi tərəfindən hazırlanmış "İmtahanlar zamanı koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair metodiki göstərişlər"ə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qaydalarına uyğun həyata keçirilir.

Vurğulanıb ki, Sumqayıt Dövlət Universitetində payız imtahan sessiyasının 2022-ci ilin yanvarın 5-dən fevralın 2-dək keçirilməsi nəzərdə tutulub. İmtahan sessiyasının gedişində yarana biləcək şikayətlərin yerində və operativ şəkildə həll edilməsini təmin etmək məqsədilə Apellyasiya komissiyası, eyni zamanda imtahan sessiyasının gedişinə nəzarət və tələbələr arasında yarana biləcək şikayətlərin operativ şəkildə araşdırılaraq aradan qaldırılması məqsədilə qərargah yaradılıb. Tələbələrin imtahanlara hazırlığının səmərəli təşkili üçün universitetin Elmi kitabxanası da gücləndirilmiş iş rejiminə keçib. Elmi kitabxanada elektron kitabxana tələbələrin ixtiyarına verilib.

Tədbirdə bildirilib ki, sessiya dövründə universitetin ictimai nəzarət və məsləhət şurasının, valideynlərin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə mütəmadi olaraq "Açıq qapı" günləri təşkil edilir. Sumqayıt Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Sumqayıt Dövlət Texniki Kollecində də imtahanlar eyni qaydada həyata keçirilir.

Sonra universitetin rəhbərliyi, valideynlər və KİV nümayəndələri ayrı-ayrı auditoriyalarda imtahan prosesini müşahidə edərək tələbələrin fikirlərini öyrəndilər və qeyd etdilər ki, sualların hamısı semestr boyu keçdikləri mövzuları əhatə edir.

Tədbir iştirakçıları universitetin fakültələrinin iş otaqları ilə də tanış oldular. Sonda idman meydançası, yataqxana və digər laboratoriyaların texniki avadanlıqlarına baxış keçirildi.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Gəncədə Cavad xanın xatirəsi anılıb

Gəncədə Qacarlar nəslindən olan Azərbaycan sərkərdəsi, dövlət xadimi, Gəncə xanlığının sonuncu hökmdarı Cavad xanın xatirəsi yad edilib.




Anım mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürk, Cavad xan Tarix və Mədəniyyət Fondunun vitse-prezidenti Müzadil Həsənov, Azərbaycan mədəniyyətinin və şəhər ictimaiyyətinin nümayəndələri və sakinlər iştirak ediblər.

Mərasim çərçivəsində Cavad xanın Gəncənin mərkəzində yerləşən türbəsi ziyarət olunub, məzarına tər çiçəklər düzülüb, ruhuna dualar oxunub. Burada Cavad xanın Azərbaycanın, xüsusilə də Gəncənin tarixindəki xidmətlərindən, azadlıq uğrunda apardığı mübarizədən danışılıb. Qeyd olunub ki, 1786-cı ildən Gəncəni idarə edən Cavad xan 1804-cü ilin yanvar ayında şəhadətə yüksəlib. O, general Pavel Sisianovun başçılığı ilə uzun müddət şəhəri mühasirədə saxlayan rus işğalçı qoşunları ilə qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olub.

Anım mərasimindən sonra Gəncə Dövlət Dram Teatrında Nüşabə Əsəd Məmmədlinin qələmə aldığı "Cavad xan" tarixi dramı əsasında hazırlanan eyniadlı tamaşa nümayiş etdirilib. 30 illik fasilədən sonra yenidən səhnələşdirilən əsər yaxın günlərdə geniş tamaşaçı kütləsinə də təqdim olunacaq.

# Tərəvəz-bostan bitkilərinin güzəştli sığortası başlayıb

**Azərbaycanda dövlət dəstəyi ilə təbiq edilən aqrar sığorta çərçivəsində ölkədə ilk dəfə olaraq tərəvəz-bostan bitkilərinin güzəştli sığortası başlayıb.**

Aqrar Sığorta Fondunun məlumatına görə, Nazirlər Kabinetinin 22 dekabr 2021-ci il tarixli 398 saylı qərarı ilə aqrar sığorta predmetlərinin - sığortalanan bitkilərin siyahısı genişləndirilib.

Nəticədə ölkədə geniş şəkildə əkilən tərəvəz-bostan bitkiləri - noxud, yaşıl noxud, qarpız, qovun, pomidor, baş soğan, sarımsaq və kələm də sığortalanan bitkilər sırasına daxil edilib.

Aqrar sığorta qaydalarına əsasən, sözügedən bitkilər dolu, yanğın, zəlzələ, torpaq sürüşməsi, qasırğa, fırtına, sel və subasma, leysan, ildırım, şaxtavurma (donvurma), normadan artıq yağan qar yağıntıları, üçüncü şəxslərin hərəkətləri kimi risklərdən, eləcə də əlavə sığorta haqqı ödəməklə, bitki xəstəlikləri və zərərvericilər və xüsusi təhlükəli ziyanvericilərin vurduğu zərərdən sığortalana bilər.

Tərəvəz-bostan bitkilərinin sığortalanması üçün sığorta tarifləri ölkənin regionları və seçilmiş sığorta zərfindən asılı olaraq dəyişir.

# Bataqlıq üzərində salınan park-bulvar indi Astaranın yaraşığıdır

**Çox yox, cəmi 6-7 il əvvəl bu gün sehrinə düşməmək mümkün olmayan Astara park-bulvarının ərazisi bataqlıq idi. Heç kəsin ağlına gəlməzdi ki, şəhərin şərq hissəsində, Xəzər sahili boyunca uzanıb gedən qamış və kol-kos basmış bu bataqlıq üzərində görənləri heyran edən park-bulvar salınacaq. Amma insan üçün, həqiqətən, çətin bir iş yoxmuş. Yetər ki, arzu, istək olsun.**



O zaman rayon icra hakimiyyətinin başçısı vəzifəsinə yeni təyin edilən Qəzənfər Ağayev tanışlıq məqsədilə bu cənub şəhərini piyada gəzərkən ilk olaraq diqqətini cəlb edən problemlərdən biri şəhərlə dəniz arasına "sədd çəkən" həmin ərazi oldu. Elə o andaca ağlından burada şəhər əhalisinin istirahəti üçün park-bulvar salmaq fikri keçdi. Məsələni dəfələrlə götür-qoy etdi. Mütəxəssislərlə, rayon ağsaqqalları ilə görüşüb məsləhətləşdi. Onlar bunun çox yaxşı, xeyirxah bir iş olduğunu, eyni zamanda çox vəsait və zəhmət tələb edəcəyini bildirdilər. Lakin geriyə yol yox idi.

Çox keçmədən ərazidə işə başlanıldı. Bataqlıq addım-addım quruduldu, qamış və kol-kosdan təmizləndi. Hazırlanmış layihəyə əsasən, tikinti işləri sürət götürdü. Sözün əsl mənasında, bura tikinti meydançasına çevrildi. Çoxlu sayda yerli bənna, qaynaqçı, fəhlə inşaat işlərinə qatıldılar.

"Yaxşı başlanğıc işin yarısıdır", - deyiblər. Görülən işlər burada - bataqlığın yerində möhtəşəm bir istirahət yerinin, yəni park-bulvarın olacağından xəbər verirdi. Rayon rəhbərliyi, əlaqədar idarə başçılarının və mütəxəssislərin iş yeri, demək olar ki, əsasən bura idi. Bütün işlər, xüsusilə keyfiyyət nəzarətdə saxlanılırdı. Tikinti işləri başa çatdıqdan sonra ağaclar əkildi, yaşıllıqlar salındı, sahil boyunca işıqlandırma sistemləri, oturacaqlar, yelkənli kafe, karusellər quraşdırıldı. Atçılıq mərkəzi, avtokartinq meydançası, velosiped zolağı, çay evi yaradıldı. Park-bulvarın şəhər səmtində iş adamları tərəfindən mehmanxana tikildi. Bütün bunlar "cənub mirvarisi" Astaranın simasına yeni gözəlliklər qatdı. Bir neçə il öncə rayondan Rusiyaya və digər yerlərə gedən astaralılar doğma yurdlarına baş çəkməyə gələndə bu ərazini tanımadılar.

Bu gün Astara bulvarı əhalinin ən çox sevdiyi istirahət yeridir. Xüsusilə yay aylarında axşamüstü Xəzərdən meh əsəndə kişili-qadınlı, uşaqlı-böyüklü hər kəs dinclik tapmaq üçün buraya tələsir. Qış aylarında da park-bulvar insan nəfəsilə isinir. İdmançılar qaçır, velosiped sürür, müxtəlif növ qurğularda məşq edirlər.

Sözügedən park-bulvarın açılışı 11 aprel 2015-ci ildə olmuşdur. Açılış lentini kəsən dövlət başçısı İlham Əliyev bu hadisə münasibətilə Astara camaatını təbrik edərək burada onlara xoş istirahətli günlər arzu etmişdir. Prezident eyni zamanda park-bulvarın qalan hissəsinin tikilməsi barədə tapşırıq və göstərişini vermiş və dövlət büdcəsindən 3 milyon manat vəsait ayrılması üçün sərəncam imzalamışdır.

Park-bulvarın yeni ərazisində 52 metr hündürlükdə Azərbaycan bayrağı dalğalanır. Milli üslubda ucaldılmış Qala divarı əraziyə xüsusi görkəm və əzəmət gətirir. Bu hissədə də uşaqlar üçün attraksionlar, açıq tennis meydançası salınıb, cürbəcür fontanlar yaradılıb. 56 min kvadratmetr sahədə salınmış yaşıllıqlar, əkilmiş 13,8 min gül, 300 kol bitkiləri, 600 nadir dekorativ və 610 yerli meşə ağacları park-bulvarda insanların mənalı istirahəti üçün hər bir işin ölçülü-biçili şəkildə görüldüyünü bildirir. Prezident İlham Əliyev 15 oktyabr 2018-ci ildə rayona növbəti səfəri zamanı park-bulvar kompleksinin ikinci hissəsinin açılışını etmişdir.

Bəli, Astara şəhərindəki bu məkanı nadir inci də saymaq olar. Düzdür, buranın gözəlliyini Tanrı özü yaratmışdır. Şəhər qərbdən meşə örtüklü silsilə dağlar, şərqdən mavigözlü Xəzərlə əhatə olunur. Bataqlıq üzərində yaradılan park-bulvar isə insan düşüncəsinin və əlinin, insan əməyinin nəticəsidir. Bu gözəl məkanı görmək, burada dincəlmək üçün rayona gələn yerli və xarici turistlərin sayı getdikcə artır. Sözsüz ki, koronavirus çəkilib gedəndən sonra bu artım daha da sürətlənəcək.

İndi hər bir astaralı başqa yerlərdə yaşayan dostunu, qohumunu, yoldaşını, tanışını ürəklə evinə qonaq dəvət edir. İstəyir ki, burada yaranan yenilikləri, aparılan quruculuq işlərini, park-bulvarı görsünlər. Son illər çəkilən rahat yollarla ən ucqar dağ kəndlərinə qalxsınlar, buz bulaqların suyundan içsinlər, Hirkan Milli Parkı meşələrindəki flora və faunanı görsünlər, sadə, ürəyi geniş kənd adamlarının qonağı olsunlar. Bu yazını tamamlayanda bir neçə müddət bundan öncə Astara haqqında yazdığım şeir yadıma düşdü:

*Xəzərin sahili dönüb cənnətə,*
*Nə qədər baxsan da, doymursan ondan.*
*Əhsən belə işə, belə zəhmətə,*
*Gülün ətri gəlir geydiyi dondan.*

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Qəbələ və Moskva arasında birbaşa hava əlaqəsi açılıb

"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, 2022-ci ilin yeni marşrut şəbəkəsi çərçivəsində Qəbələ və Moskvanı birləşdirən yeni müntəzəm aviareys açılıb.



"Nordwind" aviaşirkəti 189 sərnişin oturacağı olan "Boeing" 737-800 təyyarəsində Moskvanın Şeremetyevo hava limanından Qəbələyə ilk reys yerinə yetirib. Uçuş 3 saat davam edib.

Moskva-Qəbələ-Moskva marşrutu üzrə müntəzəm reys həftədə bir dəfə - bazar günləri həyata keçiriləcək. Yerli vaxtla saat 04:10 dəqiqədə təyyarə Qəbələdə enəcək, saat 05:20 dəqiqədə Rusiya paytaxtına qayıtmaq üçün havaya qalxacaq.

Bütün beynəlxalq norma və tələblərə cavab verən Qəbələ Beynəlxalq Hava Limanı istənilən tip hava gəmisini qəbul etməyə qadirdir.

Qəbələ-Bakı reysi barədə videoçarxla burada tanış olmaq mümkündür:

**https://youtu.be/LSHm_q7S99g**


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərpoçt" MMC* (012) 598-49-55, (051) 225-02-13
*"Qaya" firması* (012) 566-77-80, (050) 214-40-53
*"Kaspi" MMC* (012) 432-39-55, (012) 510-82-24
*"Region Press" MMC* (055) 316-79-01, (050) 316-79-01
*"Səma-M" MMC* (012) 594-09-59
*"Ziya" LTD* (012) 497-76-96, (050) 306-77-22
*"Pressinform" MMC* (012) 598-49-52, (070) 340-01-00
*"City press" MMC* (055) 819-09-26

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## "Bank Respublika" ASC tərəfindən keçirilən "Neo Kartla Qazan" lotereyasının birinci tirajının qalibləri məlum oldu

"Bank Respublika"nın təşkil etdiyi "Neo Kartla Qazan" lotereyasının birinci tirajının qalibləri məlum oldu.

25 oktyabr 2021-ci il tarixdən - 01 may 2022-ci il tarixədək davam edən lotereyanın birinci tirajı 15 yanvar 2022-ci il tarixdə bankın Baş Ofisində (Bakı ş. Xəqani, 21) ünvanında oynanılması nəticəsində 100 qalib müəyyən edildi.

**Birinci tirajın qalibləri aşağıdakı hədiyyələri qazanıblar:**

5 (beş) qalibin hər biri Samsung Galaxy S20 FE (SM-G780) Blue;
5 (beş) qalibin hər biri Samsung T505 Galaxy Tab A7 10.4 3GB 32GB Gray;
5 (beş) qalibin hər biri Samsung Galaxy Fit 2 SM-R220NZKACIS Black (Smart saat);
10 (on) qalibin hər biri Xiaomi Mi VXN4274GL 10000 mAh Dark Blue (PowerBank);
25 (iyirmi beş) qalibin hər biri 100 AZN;
50 (əlli) qalibin hər biri 50 AZN.

**Qaliblərin siyahısı:**

| № | Tiraj üzrə uduşlu lotereya biletinin identifikasiya nömrəsi, yaxud uduşlu lotereya biletinin (onlara bərabər tutulan digər məlumat daşıyıcısı) və ya onların sahiblərini eyniləşdirmək imkanı verən göstəricilər – *Müştərinin Bank Kartının Pan Nömrəsi* | Lotereya biletinə (onlara bərabər tutulan digər məlumat daşıyıcısına) düşən uduşlar |
|---|---|---|
| 1 | 547453******8562 | Samsung Galaxy S20 FE (SM-G780) Blue |
| 2 | 547453******2419 | Samsung Galaxy S20 FE (SM-G780) Blue |
| 3 | 547453******8472 | Samsung Galaxy S20 FE (SM-G780) Blue |
| 4 | 547453******4902 | Samsung Galaxy S20 FE (SM-G780) Blue |
| 5 | 547453******3178 | Samsung Galaxy S20 FE (SM-G780) Blue |
| 6 | 523522******3531 | Samsung T505 Galaxy Tab A7 10.4 3GB 32GB Gray |
| 7 | 523522******5258 | Samsung T505 Galaxy Tab A7 10.4 3GB 32GB Gray |
| 8 | 547453******3657 | Samsung T505 Galaxy Tab A7 10.4 3GB 32GB Gray |
| 9 | 523522******4890 | Samsung T505 Galaxy Tab A7 10.4 3GB 32GB Gray |
| 10 | 547453******9273 | Samsung T505 Galaxy Tab A7 10.4 3GB 32GB Gray |
| 11 | 523522******2576 | Samsung Galaxy Fit 2 SM-R220NZKACIS Black (Smart saat) |
| 12 | 547453******4289 | Samsung Galaxy Fit 2 SM-R220NZKACIS Black (Smart saat) |
| 13 | 547453******4644 | Samsung Galaxy Fit 2 SM-R220NZKACIS Black (Smart saat) |
| 14 | 547453******2182 | Samsung Galaxy Fit 2 SM-R220NZKACIS Black (Smart saat) |
| 15 | 547453******4275 | Samsung Galaxy Fit 2 SM-R220NZKACIS Black (Smart saat) |
| 16 | 547453******5988 | Xiaomi Mi VXN4274GL 10000 mAh Dark Blue (PowerBank) |
| 17 | 547453******7528 | Xiaomi Mi VXN4274GL 10000 mAh Dark Blue (PowerBank) |
| 18 | 547453******9632 | Xiaomi Mi VXN4274GL 10000 mAh Dark Blue (PowerBank) |
| 19 | 547453******2960 | Xiaomi Mi VXN4274GL 10000 mAh Dark Blue (PowerBank) |
| 20 | 523522******4640 | Xiaomi Mi VXN4274GL 10000 mAh Dark Blue (PowerBank) |
| 21 | 547453******5781 | Xiaomi Mi VXN4274GL 10000 mAh Dark Blue (PowerBank) |
| 22 | 547453******2288 | Xiaomi Mi VXN4274GL 10000 mAh Dark Blue (PowerBank) |
| 23 | 547453******4942 | Xiaomi Mi VXN4274GL 10000 mAh Dark Blue (PowerBank) |
| 24 | 547453******2078 | Xiaomi Mi VXN4274GL 10000 mAh Dark Blue (PowerBank) |
| 25 | 523522******7561 | Xiaomi Mi VXN4274GL 10000 mAh Dark Blue (PowerBank) |
| 26 | 547453******9347 | 100 AZN Balans |
| 27 | 547453******3663 | 100 AZN Balans |
| 28 | 547453******6960 | 100 AZN Balans |
| 29 | 547453******3372 | 100 AZN Balans |
| 30 | 547453******4562 | 100 AZN Balans |
| 31 | 523522******1693 | 100 AZN Balans |
| 32 | 547453******3231 | 100 AZN Balans |
| 33 | 523522******1972 | 100 AZN Balans |
| 34 | 523522******3607 | 100 AZN Balans |
| 35 | 523522******3927 | 100 AZN Balans |
| 36 | 547453******3099 | 100 AZN Balans |
| 37 | 547453******2069 | 100 AZN Balans |
| 38 | 547453******9349 | 100 AZN Balans |
| 39 | 523522******3170 | 100 AZN Balans |
| 40 | 547453******0667 | 100 AZN Balans |
| 41 | 523522******2578 | 100 AZN Balans |
| 42 | 547453******0293 | 100 AZN Balans |
| 43 | 523522******0723 | 100 AZN Balans |
| 44 | 547453******6868 | 100 AZN Balans |
| 45 | 547453******3439 | 100 AZN Balans |
| 46 | 523522******9775 | 100 AZN Balans |
| 47 | 523522******8797 | 100 AZN Balans |
| 48 | 547453******7110 | 100 AZN Balans |
| 49 | 547453******8847 | 100 AZN Balans |
| 50 | 547453******9638 | 100 AZN Balans |
| 51 | 547453******8275 | 50 AZN Balans |
| 52 | 547453******1851 | 50 AZN Balans |
| 53 | 523522******3817 | 50 AZN Balans |
| 54 | 547453******7316 | 50 AZN Balans |
| 55 | 547453******9228 | 50 AZN Balans |
| 56 | 547453******8976 | 50 AZN Balans |
| 57 | 547453******6904 | 50 AZN Balans |
| 58 | 523522******4127 | 50 AZN Balans |
| 59 | 547453******1030 | 50 AZN Balans |
| 60 | 547453******1366 | 50 AZN Balans |
| 61 | 547453******9477 | 50 AZN Balans |
| 62 | 547453******5941 | 50 AZN Balans |
| 63 | 547453******0813 | 50 AZN Balans |
| 64 | 547453******9091 | 50 AZN Balans |
| 65 | 523522******3520 | 50 AZN Balans |
| 66 | 523522******8628 | 50 AZN Balans |
| 67 | 547453******5455 | 50 AZN Balans |
| 68 | 547453******5404 | 50 AZN Balans |
| 69 | 523522******4765 | 50 AZN Balans |
| 70 | 547453******6182 | 50 AZN Balans |
| 71 | 523522******3916 | 50 AZN Balans |
| 72 | 547453******2638 | 50 AZN Balans |
| 73 | 547453******1537 | 50 AZN Balans |
| 74 | 523522******2615 | 50 AZN Balans |
| 75 | 547453******7023 | 50 AZN Balans |
| 76 | 523522******9038 | 50 AZN Balans |
| 77 | 547453******8991 | 50 AZN Balans |
| 78 | 523522******4488 | 50 AZN Balans |
| 79 | 547453******6738 | 50 AZN Balans |
| 80 | 523522******1065 | 50 AZN Balans |
| 81 | 547453******9883 | 50 AZN Balans |
| 82 | 547453******0709 | 50 AZN Balans |
| 83 | 547453******5129 | 50 AZN Balans |
| 84 | 547453******9105 | 50 AZN Balans |
| 85 | 547453******0270 | 50 AZN Balans |
| 86 | 547453******1744 | 50 AZN Balans |
| 87 | 547453******1687 | 50 AZN Balans |
| 88 | 547453******2634 | 50 AZN Balans |
| 89 | 547453******0472 | 50 AZN Balans |
| 90 | 547453******8173 | 50 AZN Balans |
| 91 | 547453******5402 | 50 AZN Balans |
| 92 | 547453******3478 | 50 AZN Balans |
| 93 | 547453******5478 | 50 AZN Balans |
| 94 | 547453******7033 | 50 AZN Balans |
| 95 | 547453******0295 | 50 AZN Balans |
| 96 | 523522******3868 | 50 AZN Balans |
| 97 | 547453******6442 | 50 AZN Balans |
| 98 | 547453******2781 | 50 AZN Balans |
| 99 | 523522******1083 | 50 AZN Balans |
| 100 | 523522******6414 | 50 AZN Balans |

## Dünya gündəmi

# Sakit okeanda vulkan püskürdü

## Atmosfer təzyiqinin sıçrayışları hətta Yer kürəsinin qarşı tərəfində də qeydə alınıb

Sakit okeanda nəhəng sualtı vulkanının püskürməsindən sonra Avstraliyadan Amerika Birləşmiş Ştatlarına qədər - bölgənin bir çox ölkələrinin hökumətləri sunami təhlükəsi barədə xəbərdarlıqlar yayıb. Dalğalar Yaponiya ərazilərini vurub. Sunami ehtimalı barədə ABŞ sakinləri xəbərdar edilib.

### 8 dəqiqəlik titrəyiş, göy gurultusuna bənzər səslər

Qurbanlar və əhəmiyyətli dağıntılar barədə məlumat daxil olmasa da, püskürmə o qədər güclü olub ki, yer səthinin silkələnmələri vulkandan min kilometr məsafədə hiss edilib və onun yaratdığı atmosfer təzyiqinin sıçrayışları hətta Yer kürəsinin qarşı tərəfində də qeydə alınıb.

Püskürmə Hunqa-Tonqa-Hunqa-Haapay vulkanının yaxınlığında yerləşən Tonqa ada dövlətinin sahilinə bir metrdən çox hündürlükdə dalğalar gətirib. Ada sakinlərinin dediklərinə görə, onların ayaqları altındakı torpaq bir neçə dəqiqə titrəyib, ətrafda isə göy gurultusuna bənzər səslər eşidilib. Gözlənilən püskürmənin ilk əlamətləri hələ yanvarın 7-də qeydə alınıb. Həmin gün sualtı vulkan səmaya xeyli tüstü atıb. Vanuatu adasında dalğaların hündürlüyü 2,5 metrə çatıb.

Bir sıra digər ölkələrin hakimiyyət orqanları sahilyanı rayonlarının sakinlərini, sunami təhlükəsi keçməyənədək okeandan uzaq durmağa çağırıblar. Kuril adalarında və Yaponiyada baş verə biləcək sunami barədə Rusiyanın təcili xidmətlərinin nümayəndələri də xəbərdarlıq edib.

### Yaponiyaya zərbə, Alyaskaya çatan gurultu

Minisunami Yaponiya sahillərinə çatıb və onlarca gəmiyə zərər vurub. Dalğaların hündürlüyü 1,2 metrə çatıb. Sikoku adasında, arxipelaqın cənubunda sunami 10 gəmini çevirib. Yaponiya televiziyası yaşayış məntəqələrində ciddi dağıntılar və ya xəsarət alanlar barədə məlumat verməyib.

ABŞ-da olduğu kimi, Yaponiyada da sahilyanı şəhərlərin sakinlərinə okeana yaxınlaşmamağı tövsiyə ediblər. Püskürmənin gurultusu Alyaskada da eşidilib. Bu barədə yerli vulkanoloq, Geofizika İnstitutunun əməkdaşı Devid Fi məlumat verib. Çili hakimiyyəti sakinləri sahilyanı rayonları dərhal tərk etməyə çağırıb. Yer kürəsinin əks tərəfində yerləşən İspaniyanın meteoroloqları da zərbəvi dalğaların yaratdığı atmosfer təzyiqinin kəskin sıçrayışları barədə məlumat veriblər.

### Tonqa Kralı sarayını tərk edib

Tonqada kilsəni, küçələri və bir neçə evi su basıb. Şahidlər vulkandan 65 kilometr məsafədə yerləşən paytaxt Nukualofada kül yağışı barədə məlumat veriblər.

Bildirilir ki, ada dövlətinin Kralı IV Aho-Eita saraydan öz şəhərkənarı villasına təxliyə olunub.

Əhaliyə çatdırılan sunami xəbərdarlığı yerli sakinləri yüksəkliklərə qalxmağa məcbur edib. Sunami təhlükəsi ilə bağlı xəbərdarlıqlar Cənubi-Sakit okean regionunda yerləşən bir sıra ölkələrin, o cümlədən Tonqa, Fici, Avstraliya və Yeni Zelandiyanın hökumətləri tərəfindən edilib.

Hunqa-Tonqa-Hunqa-Haapay vulkanının püskürməsi Sakit okeanın cənub hissəsinə yayılmış zərbəvi dalğalarla müşayiət olunub.



### Son onilliklər ərzində ən güclü püskürmə

Bu, Hunqa-Tonqa-Hunqa-Haapay vulkanının püskürmələri seriyasından sonuncusudur. Vulkanın içindən çıxan qaz, tüstü və kül "dirəkləri" 20 kilometr yüksəkliyə çatıb. Bu barədə Tonqanın Geoloji xidməti xəbər verib.

Avstraliyanın Oklend Universitetinin vulkanologiya üzrə mütəxəssisi, professor Şeyn Kronin deyib ki, bu, son 30 ildə Tonqada baş vermiş ən güclü püskürmələrdən biridir.

Alim BBC telekanalına bildirib ki, bu prosesdə ən diqqətəlayiq məsələ onun necə sürətlə yayılmasıdır. Hazırkı püskürmə daha iri, sürətlə inkişaf edən, daha çox kül atan olub.

Səkkiz dəqiqəlik püskürmə elə güclü olub ki, göy gurultusu kimi səslər hətta vulkandan 800 kilometrdən çox aralıqda yerləşən Ficidə eşidilib. Ada hökuməti də sakinlərə sahilyanı rayonları tərk etməyi tövsiyə edib və təxliyə mərkəzlərini açıb.

Vulkandan 2,3 min kilometr məsafədə yerləşən Yeni Zelandiyada hakimiyyət orqanları sakinləri püskürmə nəticəsində yüksək su artımları ehtimalı barədə xəbərdarlıq edib. Fövqəladə Hallarla Mübarizə üzrə Milli Agentlik ölkənin bəzi yerlərində güclü və qeyri-adi cərəyanlar, eləcə də sahilyanı ərazilərdə gözlənilməz fırtına subasmaları baş verə biləcəyini bildirib. Yerli Meteoroloji Büro bildirib ki, enerji emissiyası sadəcə heyrətləndirir. Bütün Yeni Zelandiya boyunca insanların gurultu eşitdikləri barədə xəbərlər daxil olur.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*

## Xırdalanda hərbi sursat tapılıb

Fövqəladə Hallar Nazirliyinin (FHN) 112 - qaynar telefon xəttinə Abşeron rayonunun Xırdalan şəhərindəki Quşçuluq massivində hərbi sursatın aşkar edilməsi barədə məlumat daxil olub.



FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məlumatla əlaqədar hadisə yerinə dərhal FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin pirotexniklər qrupu cəlb edilib.

Hərbi sursatın tapıldığı yerin yaxınlığındakı insanlar təhlükəsiz məsafəyə uzaqlaşdırıldıqdan və kənar şəxslərin əraziyə girişi müvəqqəti məhdudlaşdırıldıqdan sonra pirotexniklər hadisə yerinə baxış keçiriblər. Ərazidən aşkarlanmış hərbi sursatın döyüş tətbiqinə yararlı 122 millimetrlik OF-56 artilleriya mərmisi, 82 millimetrlik OF-832 minaatan minası və 122 millimetrlik BK-M mərmisi olduğu müəyyən olunub.

Mərmilər zərərsizləşdirilməsi üçün pirotexniklər tərəfindən götürülərək ərazidən kənarlaşdırılıb.

Hadisə yerində və ətraf ərazidə əlavə axtarış zamanı başqa təhlükəli və ya şübhəli əşya aşkarlanmayıb.

## Ötən həftə 51,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, yanvarın 10-dan 15-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 14, tank əleyhinə 1 mina və 112 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 51,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.




## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərliyi və kollektivi Aparatın Beynəlxalq əməkdaşlıq şöbəsinin sektor müdiri

**FİKRƏT KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və Aparatın kollektivi Ziba Məmmədovaya atası

**QİYAS MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Baş Prokurorluğunun kollektivi Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanova əzizi

**SİMUZƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin hakimləri və kollektivi məhkəmənin hakimi Ceyhun Tağıyevə atası

**ƏLİKRAM TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Rus İqtisad Məktəbinin direktor müavini Anar Eyyubova anası

**AYBƏNİZ EYYUBOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan Apellyasiya Məhkəməsinin kollektivi məhkəmənin hakimi Kamil Başirova atası

**SÜCƏDDİN BƏŞİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 4947
Sifariş 139
Qiyməti 40 qəpik